# AZƏRBAYCAN DİLİ

DÖVLƏT DİLİ

DƏRSLİK




2

 

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Musiqisi* ***Üzeyir Hacıbəylinin,***
*sözləri* ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

HƏVVA ABDULLAYEVA

# AZƏRBAYCAN DİLİ 2

Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün
Azərbaycan dili (dövlət dili)
fənni üzrə dərslik

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**kovserneshriyyat@gmail.com** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

"KÖVSƏR"
NƏŞRİYYATI
BAKI – 2018

## MÜNDƏRİCAT


§ 1. Gəlin danışaq! ........ 5
§ 2. A a ........ 10
§ 3. N n ........ 11
§ 4. Ə ə ........ 12
§ 5. T t ........ 13
§ 6. B b ........ 14
§ 7. U u ........ 15
§ 8. L l ........ 16
§ 9. M m ........ 18
§ 10. R r ........ 19
§ 11. İ i - I ı ........ 21
§ 12. D d ........ 23
§ 13. K k ........ 25
§ 14. O o ........ 27
§ 15. G g ........ 29
§ 16.Y y ........ 30
§ 17. Z z ........ 32
§ 18. X x ........ 34
§ 19. Q q ........ 36
§ 20. F f ........ 39
§ 21. S s ........ 41
§ 22. Ş ş ........ 43
§ 23. Ü ü ........ 46
§ 24. C c ........ 49
§ 25. Ç ç ........ 51
§ 26. E e ........ 54
§ 27. V v ........ 56
§ 28. Ö ö ........ 59
§ 29. Ğ ğ ........ 62
§ 30. H h ........ 65
§ 31. P p ........ 68
§ 32. J j ........ 72
§ 33. Mənim Vətənim ........ 77
§ 34. Təkrar ........ 82


**Dərslikdə istifadə olunmuş şərti işarələr:**

* - dili praktik cəhətdən bilənlər üçün nəzərdə tutulmuş didaktik materialları fərqləndirir;

.. - çalışmanın mətnində buraxılmış hərf və ya şəkilçinin yerində işlənir;

— - çalışmanın mətnində buraxılmış sözlərin yerində işlənir;

♦ - çalışmalara aid əlavə tapşırıqları fərqləndirir;

● - sait səslərin yerində işlənir;

● - samit səslərin yerində işlənir.

? - mətnə aid tapşırıqlara işarə edir.

# §1. GƏLİN DANIŞAQ!










DƏFTƏR


AZƏRBAYCAN DİLİ
2




Альбом для рисования













# §2. A a / *A a*

**1. [A] səsini tələffüz edin, sonra “Aa” hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyə bilərsinizmi?**



**♦ Müəllimin köməyi ilə bu sözlərdə [a] səsinin sayını və yerini müəyyənləşdirməyə çalışın.**

**3*. Şəklə baxın. Gördükləriniz əsasında cümlələr qurun.**



**4. Müəllimlə birlikdə tələffüz edin.**

**[al], [ad], [at], [az], [ax], [an],** [na], [ta], [va], [ka], **[nar], [tar], [saz],** [vaz], **[baş], [daş], [qaç], [ay], [say], [çay]**

**♦ Tələffüz etdiyiniz hecaların içərisində söz kimi işlənənlər varmı? Onları tapıb səsləndirin.**

**5. [A] səsi ilə başlayan və içərisində [a] səsi olan sözlər deyin.**

# §3. N n / *Nn*

**a - na**

**1. [N] səsini tələffüz edin, sonra “Nn” hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyə bilərsinizmi?**



♦ **Müəllimin köməyi ilə bu sözlərdə [n] səsinin sayını və yerini müəyyənləşdirməyə çalışın.**

**3. Müəllimlə birlikdə tələffüz edin.**

**[nə]**, [na], [şə], [ən], **[an]**, **[mən]**, **[sən]**, **[on]**, **[dən]**, **[nar]**, [tən], **[gün]**, [nək], [pen], **[qan]**, **[yun]**

♦ **Necə bilirsiniz, bu hecaların içərisində həm də söz kimi işlənənlər varmı? Onların mənasını bilirsinizmi?**

**4*. Şəkil əsasında cümlələr qurun. Bacarsanız, kiçik bir mətn tərtib etməyə çalışın.**



**5. [N] səsi ilə başlayan sözlər tapıb deyin.**

# §4. Ə ə / *Ə ə*

**nə - nə, nə**

**1. [Ə] səsini müəllimlə birlikdə tələffüz edin, sonra "Əə" hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyə bilərsinizmi?**
















- **Müəllimin köməyi ilə bu sözlərdə [ə] səsinin sayını və yerini müəyyənləşdirməyə çalışın. Təhsil aldığınız dildə də bu səs varmı?**

**3. Müəllimlə birlikdə tələffüz edin.**

**[nə]**, [mə], [ən], **[ət], [əl]**, [tə], [də], **[lək], [çək]**, [mək], [təb], **[dəf]**, [ləm], [yə], **[əy], [sən], [mən], [dən], [şən], [ək], [əs], [səs]**

- **Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın. Onların mənasını bilirsinizmi?**

**4*. Şəkildə gördükləriniz əsasında cümlələr qurun.**



**5. [Ə] səsi ilə başlayan sözlər deyə bilərsinizmi?**

**6. Hecalarla oxuyun və tərcümə edin.**

Nanə, Anna, ana, nənə, nə, ana, nənə, nanə, nə

**7*. Yeni öyrəndiyiniz sözləri işlətməklə cümlələr qura bilərsinizmi?**

## §5. T t / *Tt*

**a - ta , at, ət**

**1. [T] səsini tələffüz edin, sonra “Tt” hərfini yazın.**

**2*. Deyə bilərsinizmi, şəkildə gördüyünüz əşyalar Azərbaycan dilində necə adlanır?**






6










♦ **Müəllimin köməyi ilə bu sözlərdə [t] səsinin sayını və yerini müəyyənləşdirməyə çalışın.**

**3. Müəllimlə birlikdə tələffüz edin.**

[ta], [tə], [tu], [to], **[ət], [at], [ot], [tut], [tar],** [tər], [tab], [təb], [tib], **[tor], [tək], [tik], [et], [öt].**

♦ **Necə bilirsiniz, göy rəngdə verilmiş hecaları söz hesab etmək olarmı? Tanış olmayan sözlərin mənasını öyrənməyə çalışın.**

4*. Şəklə baxın və cümlələr qurun.



5*. [T] səsi ilə başlayan sözlər deyə bilərsinizmi?

6. Hecalarla oxuyun.

Nanə, ata, ana, nənə, ata, ana, nanə, nənə, at, ət, at, nə

7*. Yeni öyrəndiyiniz sözləri işlətməklə cümlələr qura bilərsinizmi?

## §6. B b / *B b*

**ba - ba**

1. [B] səsini tələffüz edin, sonra "Bb" hərfini yazın.

2*. Deyə bilərsinizmi, şəkildə gördüyünüz əşyalar Azərbaycan dilində necə adlanır?



♦ Müəllimin köməyi ilə bu sözlərdə [b] səsinin sayını və yerini müəyyənləşdirin.

**3. Müəllimlə birgə tələffüz edin.**

**[bu]**, [ba], [bə], [be], [ab], [əb], **[bal], [baş], [beş]**, [tab], **[qab], [bel], [bol]**, [ban], [bən], [bət], **[bat]**, [təb], **[bir]**

♦ **Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın. Tanış olmayan sözlərin mənasını öyrənməyə çalışın.**

**4*. Şəklə baxıb cümlələr qurun.**



**5*. [B] səsi ilə başlayan sözlər deyə bilərsinizmi?**

**6. Hecalarla oxuyun və tərcümə edin.**

Nabat, Anna, Nanə, nanə, nənə, ata, baba, ana, ət, nə, at

## §7. U u / U u

**bu, un, tut**

**1. [U] səsini tələffüz edin, sonra "Uu" hərfini yazın.**

**2*. Deyə bilərsinizmi, şəkildə gördüyünüz əşyalar Azərbaycan dilində necə adlanır?**



♦ **Müəllimin köməyi ilə bu sözlərdə [u] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Müəllimlə birgə tələffüz edin.**

**[bu],** [tu], [nu], [ut], **[un],** [ub], **[tut],** [bun], [nun], [tub], [nub], [mun], [us], **[su],** [zu], [qu], **[yu], [yun], [sus], [quş], [duz], [buz]**

♦ **Necə bilirsiniz, göy rəngdə verilmiş hecaları söz hesab etmək olarmı? Mənasını bildiyiniz sözləri seçib deyin.**

**4*. Şəkildə gördükləriniz əsasında cümlələr qurun.**



**5. Hecalarla oxuyun.**

Tutu, Banu, Nanə, Nabat, Anna, Tutunu, bunu, Tutunun, Banunu, nənə, baba, ata, ana, nanə

**6*. İçərisində [u] səsi olan sözlər seçib deyin.**

**7*. Yeni öyrəndiyiniz sözləri işlətməklə cümlələr qura bilərsinizmi?**

## §8. L l / *L l*

**al, əl, la - lə**

**1. [L] səsini tələffüz edin, sonra "Ll" hərfini yazın.**

**2*. Deyə bilərsinizmi, şəkildə gördüyünüz əşyalar Azərbaycan dilində necə adlanır?**



♦ **Müəllimin köməyi ilə bu sözlərdə [l] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. Səslərin düzgün tələffüzünə diqqət yetirin.**

[la], [lə], **[al]**, **[əl]**, [ba], **[bal]**, **[un]**, [bəl], **[at]**, [tu], **[tut]**, [tab], [təb], [tub], **[bat]**, **[nə]**, [tə], [ub], [ut]

♦ **Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın. Mənasını bildiyiniz sözləri seçin.**

**4*. Şəkildə hansı gül təsvir olunub? Qızlardan birini *Lalə* adlandırın və şəkildə gördüyünüzü təsvir edin.**



**5*. İçərisində [l] səsi olan sözlər tapıb tələffüz edin.**

**6. Şəklə baxın və düşünün: Qıza hansı adları vermək olar?**



**7. Oxuyun və tərcümə edin.**

1) Ata, at al. 2) Ana, lalə al. 3) Nənə, bunu al. 4) Ana, unu al. 5) Ana, bal al. 6) Tutu, bunu tut. 7) Lalə, Nanə, Tutunu tutun.

## §9. M m / *Mm*

**mən, al - ma**

**1. [M] səsini tələffüz edin, sonra “Mm” hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyin.**



♦ **Müəllimin köməyi ilə bu sözlərdə [m] səsinin sayını və yerini müəyyənləşdirməyə çalışın.**

**3. Müəllimlə birgə tələffüz edin, sonra oxuyun.**

[ma], [mə], [mu], [am], **[əm],** [um], [mək], [mud], [ləm], **[min],** [lum], **[mən], [dəm], [nəm], [tam], [mat], [film], [mum]**

♦ **Necə bilirsiniz, göy rəngdə verilmiş hecaları söz hesab etmək olarmı? Tanış olmayan sözlərin mənasını öyrənməyə çalışın.**

**4*. Şəklə baxıb cümlələr qurun.**



**5.** **İçərisində [m] səsi olan sözlər tapmağa çalışın. Kim daha çox belə sözlər bilir?**

**6.** **Şəkildə gördüklərinizi bir sözlə adlandıra bilərsinizmi? Evdə bu meyvələrin şəklini çəkin.**






**7.** **Şəkildə nə görürsünüz? Cümlələr qurun.**


Mətanət

,  **-u**  - ● a at!

 **-u**  - ● a at ● ● .

Nabat,  - ● al!

Nabat  - ● al ● ● .

**8*.** **Yeni öyrəndiyiniz sözləri işlətməklə cümlələr qura bilərsinizmi?**

**9.** **Öyrəndiyiniz hərfləri və sözləri təkrar edin.**

## §10. R r / R r

**nar, bu - ra, tar**

**1.** **[R] səsini tələffüz edin, sonra “Rr” hərfini yazın.**

**2*.** **Şəkildə gördüyünüz əşyaların Azərbaycan dilində necə adlandığını bilirsinizmi?**

     

     

♦ **Müəllimin köməyi ilə bu sözlərdə [r] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3*. [R] səsi ilə başlayan sözlər deyə bilərsinizmi?**

**4. Əvvəlcə müəllimlə birgə, sonra müstəqil tələffüz edin.**

[ra], [rə], [ru], [ar], [ər], [ur], **[nur], [bur],** [tur], [rəm], [lar], **[nar], [tar], [bar],** [nər], **[bat],** [ban], [lam], **[mən],** [tən], **[tum], [tut]**

♦ **Necə bilirsiniz, göy rəngdə verilmiş hecaları söz hesab etmək olarmı? Mənasını bildiyiniz sözləri seçib deyin.**

**5*. Uşaqları *Anar*, *Təranə*, *Tural* adlandırmaqla şəkil üzrə danışın.**



**6*. İçərisində [r] səsi olan sözlər tapıb deyin. "Kim daha çox..." yarışı keçirin.**

**7. Hecalarla oxuyun və tərcümə edin.**

1) Ata, mənə at al. 2) Mətanət, mənə bal al. 3) Tərana, Mətanətə lalə al. 4) Nənə, un al. 5) Ana, ət al. 6) Rəna, Anara alma, nar al. 7) Anar Nurunu tutur. 8) Nuru, Rəna, Tutunu tutun.

**8. *Tərana*, *Anar*, *Lalə* adlarını işlətməklə cümlələr qurun.**

 ,  - ○ tut!

  - ○ tutur.

 ,  - ○ al!

  - ○ al ○ r.

## §11. İ i – I ı / *İi – Iı*

**bir, bə - li, it, ə - mi, a - rı**

**1. [İ] və [ı] səslərini tələffüz edin, sonra "İi", "Iı" hərflərini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyin.**

 7    

     

♦ **Müəllimin köməyi ilə bu sözlərdə [ı], [i] səslərinin sayını və yerini müəyyənləşdirin.**

**3. [İ] səsi ilə başlayan sözlər tapıb deyin.**

**4. Əvvəlcə müəllimlə birgə, sonra sərbəst tələffüz edin.**

**[il]**, [in], **[it]**, [ib], [li], [ni], [nı], [bı], [nın], [tı], **[min]**, **[bir]**, [mı], [rı], [ın], [ır], [ıl], [lan], **[tir]**, **[bur]**, **[tər]**, **[tut]**, **[bit]**, **[bil]**, **[lil]**

♦ **Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın. Bildiyiniz sözlərin mənasını izah edin.**

**5*. Şəkil üzrə kiçik mətn tərtib edin və yazın.**



**6*. İçərisində [i] və [ı] səsləri olan sözlər tapıb deyin. "Kim daha çox..." yarışı keçirin.**

**7. Hecalarla oxuyun.**

1) Lalə tarı tutur. 2) Əmi tarı alır. 3) Atam Anara at alır. 4) Nuru əmi alma, nar, ət, un alır. 5) Bəli, bu mənəm. 6) Bəli, nənə. 7) Nərmin, Nəriman, Tərlanı tutun! 8) Nənəm arını tutur.

**8. Tərcümə edin.**

Nabatı, Laləni, un, lalələr, alırlar, almalar, maral, tutur, ilan, arı

**9.** Şəklə baxıb söz birləşmələri düzəldin və tərcümə edin.




## §12. D d / D d

**ad, nə - dir, ar - mud**

**1.** [D] səsini tələffüz edin, sonra "Dd" hərfini yazın.

**2*.** Deyə bilərsinizmi, şəkildə gördüyünüz əşyalar Azərbaycan dilində necə adlanır?




♦ Bu sözlərdə [d] səsinin sayını və yerini müəyyənləşdirin.

**3*.** [D] səsi ilə başlayan sözlər tapıb deyin.

**4. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun.**

[lud], [da], [di], [du], [də], [dı], [mud], **[dur]**, [dir], [dır], **[ad]**, **[dar]**, **[nar]**, **[bar]**, **[tar]**, [nur], **[dad]**, **[dil]**, **[did]**, **[dib]**, **[dəb]**, **[dal]**, **[ud]**

♦ **Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın. Mənasını bildiyiniz sözləri seçib səsləndirin.**

**5*. Şəkildə nə görürsünüz? Gördüklərinizi təsvir edə bilərsinizmi? Ananı *Dilbər*, qızları isə *Dilarə* və *Nərminə* adlandırın.**



**6. Oxuyun. Tərcümə edin.**

– Baba, bu, atdır?
– Baba, Anar atı tutur?
– Baba, bu nədir?
– Nənə, anam nə alır?
– Nənə, bu, undur?
– Nənə, bu nədir?
– Adın nədir?

– Bəli, Adil, bu, atdır.
– Bəli, Dilbər, Anar atı tutur.
– Bu, itdir.
– Dilbər, ana alma alır.
– Bəli, Dilbər, bu, undur.
– Dilbər, bu, armuddur, bu, nardır.
– Adım Nurlandır.

**7*. Yeni öyrəndiyiniz sözləri işlətməklə cümlələr qurun.**

**8. Keçdiyiniz hərfləri və sözləri təkrar edin.**

# §13. K k / *K k*

**kim, i - ki, ki - tab, mək - təb**

**1. [K] səsini tələffüz edin, sonra “Kk” hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyə bilərsinizmi?**

     

     

♦ **Müəllimin köməyi ilə bu sözlərdə [k] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. [K] səsi ilə başlayan sözlər tapıb deyin.**

**4. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun.**

[ki], **[kim], [bük],** [dək], [rik], [rək], [kə], [kam], **[lək],** [kək], [lik], **[dik],** [kı], [ku], **[tək], [ək], [tik],** [kil], **[kök], [kol], [çək], [sök]**

♦ **Necə bilirsiniz, göy rəngdə verilmiş hecaları söz hesab etmək olarmı? Tanış olmayan sözlərin mənasını öyrənməyə çalışın.**

**5. Şəklə baxıb cümlələr qurun.**



**6. Oxuyun və tərcümə edin.**

– Bura Bakıdır?
– Bəli, bura Bakıdır.
– Adın nədir?
– Adım Kamrandır.
– Bu kimdir?
– Bu, İlkindir. İlkin bir kitab alır.
– Bu da Kəmalədir. Kəmalə iki kitab alır.
– Bu nədir?
– Bu, tardır.
– Kim tar alır?
– Babək tar alır.
– Babək, mən də tar alıram.
– Al, İlkin, al!

**7. Oxuyun. Suallara cavab verin.**

Bu kimdir?

Bu, babadır. / nənədir. / atadır. / anadır. / əmidir.

Bu nədir?

Bu, atdır. / ətdir. / itdir. / əldir. / undur.

Bu nədir?

Bu,
 - dır.
 - dır.
 - dır.
 - dur.

Bu nədir?

Bu,
 - dır.
 - dir.
1 - dir.
2 - dir.

**8. Oxuyun və tərcümə edin.**

iki kitab – kitablar
iki inək – inəklər
iki məktəb – məktəblər
altı armud – armudlar
iki it – itlər
iki alma – almalar
iki lalə – lalələr
altı nar – narlar

# §14. O o / *O o*

o, on - lar, o - ra, o - tu - rur

**1. [O] səsini tələffüz edin, sonra “Oo” hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaları Azərbaycan dilində adlandırın.**














♦ **Müəllimin köməyi ilə bu sözlərdə [o] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. [O] səsi ilə başlayan sözlər tapıb deyin.**

**4. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun.**

**[ot]**, [do], **[top]**, [kon], **[don]**, [or], **[ol]**, **[on]**, [to], **[ov]**, **[tor]**, **[ton]**, **[çox]**, **[plov]**, **[stol]**

♦ **Bu hecaların içərisindən söz kimi işlənənləri tapın.**

**5*. Şəklə baxıb cümlələr qurun. Cümlələrdə *ordu*, *orada*, *burada*, *təlim*, *komandir* sözlərindən istifadə edin.**



**6. Oxuyun və tərcümə edin.**

| | | | |
|---|---|---|---|
| Nuru / O | alır. | Mələk / O | oturur. |
| Nuru / O, | kitab alır. | Mələk / O, | orada oturur. |
| Kəmalə, İlkin / Onlar | tort alırlar. | Baba, nənə / Onlar | burada otururlar. |

**7. Dialoqu oxuyun. Özünüz də nümunə üzrə dialoq qurun.**

Bura məktəbdir. Nurlan buradadır. Bu, kitabdır. Nurlan iki kitab alır.

– O kimdir?
– O, Nuranədir.
– O oturur?
– Bəli, o oturur.
– Kamal, Kəmalə də oradadırlar? Onlar da otururlar?
– Bəli, onlar da otururlar.
– Mən də burada otururam. Mən kitabları əlimdə tuturam.

**8. İçərisində [o] səsi olan sözlər deyin.**

**Yadda saxlayın:**

Mənim adım Lalədir.
Onun adı Nurlandır.

**9. Dialoqu rollar üzrə oxuyun və tərcümə edin.**

– Təranə, bu nədir?
– Nuru, bu, atdır.
– O da atdır?
– Bəli, o da atdır.
– O atı kim tutur?
– Atı Adil tutur.
– O kimdir?
– O, Banudur.
– Banu nə alır?
– O, nar alır.
– O, alma da alır?
– Bəli, Banu alma, nar, armud alır.
– İmran da buradadır?
– Bəli, İmran da, Rəna da buradadırlar. Onlar kitab, albom alırlar.

# §15. G g / *G g*

**kənd, gə - lir, gə - ti - rir, tə - til**

**1. [G] səsini tələffüz edin, sonra “Gg” hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaları Azərbaycan dilində adlandırın.**















♦ **Müəllimin köməyi ilə bu sözlərdə [g] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə, sonra müstəqil tələffüz edin. [G] səsinin tələffüzünə diqqət yetirin. Təhsil aldığınız dildə bu səs varmı?**

[gə], [gər], [ga], [gi], [gu], [ləng], [gin], **[ting]**, [gar], **[gəl], [gil], [gir], [gur], [rəng], [gül], [get], [göl], [gen], [göy], [gec], [göz]**

♦ **Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın.**

**4. [G] səsi ilə başlayan sözlər deyin.**

**Yadda saxlayın:**
Gəlmək olar?

**5*. Şəklə baxıb cümlələr qurun.**



**6. Oxuyun və tərcümə edin.**

Bura Bakıdır. Nigar Bakıdadır. O, məktəbdən gəlir.

Bu, babadır. Bu da Əkrəm əmidir. Onlar kənddən gəlirlər. Baba kənddən alma, armud, nar gətirir.

Baba oturur. Kamran gəlir. O, bura gəlir. Kamran da oturur.

Bu, atdır. At bura gəlir. Əkrəm əmi atı tutur.

**7. Oxuyun və tərcümə edin.**

Kamil / Nigar / O → gəlir.

Kamil / Nigar / O, → kənddən gəlir.

Əkrəm, / Nərmin / Onlar → gəlirlər.

Nərmin, / Əkrəm / Onlar → məktəbdən gəlirlər.

**8. Düzgün intonasiya ilə tələffüz etməklə cümlələri oxuyun, sonra tərcümə edin.**

Lalə alır.
Nigar oturur.
Əkrəm gəlir.
Nailə gətirir.
Durna tutur.

– Lalə alır?
– Nigar oturur?
– Əkrəm gəlir?
– Nailə gətirir?
– Durna tutur?

– Lalə, al.
– Nigar, otur.
– Əkrəm, gəl.
– Nailə, gətir.
– Durna, tut.

## §16. Y y / Yy

**yay, yu - yur, ya - tır, da - yı, ya - nın - da**

**1. [Y] səsini tələffüz edin, sonra "Yy" hərfini yazın.**

**2*. Deyə bilərsinizmi, şəkildə gördüyünüz əşyalar Azərbaycan dilində necə adlanır?**














♦ **Müəllimin köməyi ilə bu sözlərdə [y] səsinin sayını və yerini müəyyənləşdirməyə çalışın.**

**3. [Y] səsi ilə başlayan və içərisində bu səs olan sözlər tapıb deyin.**

**4. Əvvəlcə müəllimlə birgə, sonra müstəqil tələffüz edin. Bu hecaların içərisindən söz kimi işlənənləri tapın.**

[yə], [yi], [yur], [bay], [yar], **[yun], [iy]**, [təy], [yır], **[ay], [əy], [doy], [boy], [toy]**, [yad], [lay], [yən], [yı], [yi], **[tay], [yat]**

**5*. Şəklə baxıb cümlələr qurun. Cümlələrdə *iynə, düymə, qayçı, köynək* sözlərindən istifadə edin.**



**6. Oxuyun və tərcümə edin.**

Yaydır. Məktəbdə tətildir. Aytəkin Bakıdadır. Mərdan dayı da buradadır.

İyulun biridir. Bura kənddir. Mərdan dayı kəndə gəlir. O, Aytəkini də kəndə gətirir. Aynurə, Gəray da buradadırlar. Onlar Aytəkinə tut gətirirlər. Onlar otururlar.

Bu, Aydandır. Aydan alma, armud yuyur. O, almanı, armudu bura gətirir. Aydan oturur. Mən əlimi yuyuram. Mən də otururam.

Nigar oradadır. Nigar yatır.

Babək ilə İlkin atın yanındadırlar. İlkin atı tutur. Babək ata minir.

**7. Oxuduğunuz mətnin məzmunu üzrə yoldaşlarınıza suallar verin.**

**8. Hecalardan sözlər düzəldin.**

Ay, tə, kin; lay, lay; iy, nə; gə, lir, lər; bay, ram; ya, tır; yu, yur; Ay, nur; a, yı; da, yı; ə, mi; ro, yal; kim, dir; nə, dir, a, rı.

**9. Neçə hərf və sözü yazmağı, oxumağı öyrəndiniz? Təkrar edin.**

**Yadda saxlayın:**
Buyurun.

**10*. Şəkillərə baxın və cümlələri tamamlayın.**



Aydan __ .



Aynur __ __ .



Nigar __ __ .



Aydın __ __ .



Gəray __ __ .



Babək __ __ .

## §17. Z z / *Z z*

**biz, ya - zır, tə - miz, əz - bər - lə - yir**

**1. [Z] səsini tələffüz edin, sonra “Zz” hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaları Azərbaycan dilində adlandırın.**








     

♦ **Müəllimin köməyi ilə bu sözlərdə [z] səsinin sayını və yerini müəyyənləşdirməyə çalışın.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. Hansı hecaları oxuya bilmədiniz?**

[zi], [zı], [zu], [zə], [za], **[iz]**, [uz], **[az]**, **[əz]**, **[duz]**, **[buz]**, **[diz]**, **[biz]**, **[zəng]**, **[qız]**, **[qaz]**, [miz], [zay], [zim], [məz], [zun], **[söz]**

♦ **Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın.**

**4. [Z] səsi ilə başlayan və içərisində bu səs olan sözlər tapıb deyin.**

**5*. Şəklə baxıb cümlələr qurun. Qızları *Nərgiz* və *Nəzrin*, oğlanı isə *Nazim* adlandırın.**



**6. Oxuyun və tərcümə edin.**

Bu, Azərdir. Azər məktəbdədir. Niyazi də buradadır.

Nəzrin məktəbdən gəlir. O, əllərini təmiz yuyur. Nərgiz də əllərini yuyur. Onlar otururlar. Nəzrin yazır. Nərgiz də yazır.

Əzəmət də buradadır. Kitab Əzəmətin əlindədir. O əzbərləyir.

Bu, Nazim dayıdır. Nazim dayı kənddən gəldi. O, kənddən alma, armud və nar gətirdi. Ana onları təmiz yudu. O, almaları, armudları bizə gətirdi.

**7.** **Oxuduğunuz mətnin məzmunu üzrə yoldaşlarınıza suallar verin.**

**8.** **Hecalardan sözlər düzəldib köçürün.**

Ul, duz; əz, bər; tə, miz; də, niz; nər, giz; li, mon; zən, bil; dər, zi

**9.** **Dialoqu rollar üzrə oxuyun. Nümunə üzrə özünüz də dialoq qurun.**

– Alo.
– Bəli.
– Kimdir, Nərgizdir?
– Bəli, Nərgizdir.
– Nərgiz, mənəm, Arzu. Nənəm kəndə gəlir?
– Bəli, Arzu, nənə də, Nigar da kəndə gəlirlər. Onlar Aytəkini də kəndə gətirirlər.
– Nərgiz, Nərminə məktəbdən gəldi?
– Bəli, Arzu. Nərminə buradadır. O, yazı yazır.

## §18. X x / *Xx*

**o - xu - yur, ba - xır, a - na di - li, xa - la, xo - ruz**

**1.** **[X] səsini tələffüz edin, sonra “Xx” hərfini yazın.**

**2*.** **Deyə bilərsinizmi, şəkildə gördüyünüz əşyalar Azərbaycan dilində necə adlanır?**



♦ **Müəllimin köməyi ilə bu sözlərdə [x] səsinin sayını və yerini müəyyənləşdirməyə çalışın.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. [X] səsinin tələffüzündə diqqətli olun.**

[xo], [xi], [xa], [xə], [xu], [xır], [xur], **[xan], [xalq], [tax], [ox], [bax], [yax], [xal], [taxt], [bəxt]**, [ix], **[ax], [yox]**

♦ **Bu hecaların içərisindən söz kimi işlənənləri tapın.**

**4. [X] səsi ilə başlayan və içərisində bu səs olan sözlər tapıb deyin. "Kim daha çox..." yarışı keçirin.**

**5*. Şəklə baxıb cümlələr qurun. Cümlələrdə *xəritə*, *xala*, *baxır*, oxuyur sözlərindən istifadə edin. Ananı *Xuraman xala*, qızları *Xumar*, *Xəyalə*, oğlanı *Ayxan* adlandırın.**



**6. Oxuyun və tərcümə edin.**

Xumar məktəbdən gəlir. Xumar əllərini təmiz yuyur. O oturur. Bu, "Ana dili" kitabıdır. Xumar yazır. O, kitabdan yazır: xoruz, xurma, xiyar, xala, xalı...

Mən yazıram: "Xanım xala xiyar alır".

Xəyal da buradadır. Xəyal kitabdan oxuyur: "Xanlar əmi kənddən gəlir. O, kənddən xiyar, xurma gətirir. Xanlar əmi bir dənə də xoruz gətirir. Əzəmət xoruza baxır. Xanlar əmi xoruzu tutur".

Xatirə xəritəyə baxır. Xanım xala bizə xurma, alma, armud gətirir. Xanım xala bizimlə oturur.

**? Oxuduğunuz mətnin məzmunu üzrə yoldaşlarınıza suallar verin.**

**Atalar sözü:**

*Kitab bilik mənbəyidir.*

**7.** **İçərisində [x] səsi olan adlar deyin. Bu adlar təhsil aldığınız dildə də varmı? Onları yazın.**

**8.** **Verilmiş sözlərdən cümlələr qurun və onları tərcümə edin.**

1) Nazim, alır, tar. 2) Onlar, gəlirlər, kənddən. 3) Kamran baba, alma, nar, gətirir. 4) Ələkbər əmi, baxır, bu, ata. 5) Dilarə xala, Xuramana, alır, albom.

**9.** **Keçilmiş hərfləri təkrar edin. İmla yazmağa hazırlaşın.**

**Yadda saxlayın:**

| | |
|---|---|
| Oxu. | Oxuyun. |
| Yaz. | Yazın. |

**10.** **Şəkillərə baxın. Gördüklərinizi bir sözlə adlandıra bilərsinizmi?**



## §19. Q q / Q q

**qə - ləm, qa - ra, qız - lar, qır - mı - zı, qu - zu**

**1.** **[Q] səsini tələffüz edin, sonra "Qq" hərfini yazın.**

**2*.** **Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyə bilərsinizmi?**



♦ **Bu sözlərdə [q] səsinin sayını və yerini müəyyənləşdirə bilərsinizmi?**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun.**

[qa], [qu], [qı], [qə], [qo], [əq], [ıq], **[qaz], [qoz],** [yuq], [raq], [maq], [qat], **[qum], [qar], [qan],** [laq], [lıq], [ruq], **[qənd],** [bərq], [dıq]

♦ **Bu hecaların içərisindən söz kimi işlənənləri tapın.**

**4. [Q] səsi ilə başlayan və içərisində [q] səsi olan sözlər tapıb deyin.**

**5*. Şəkil üzrə kiçik mətn tərtib edin və yazın.**



**6. Oxuyun və tərcümə edin.**

Bu, Qumrudur. Qumru Qəmər xalanın qızıdır. Qəmər xala Qumruya qələm alır. Qələmlər qara, qırmızıdır. Qəmər xala qələmləri gətirir. Qumru qələmlərə baxır. O, qırmızı qələmlə yazır. Biz qara qələmlə yazırıq. Qəmər xala bizə baxır. Biz oxuyuruq, yazırıq.

Aytən ilə Aydan bizə gəlirlər. Qızları bizə Qədir əmi gətirir. Qızlar otururlar, oxuyurlar. Aydan yazır: quzu, toyuq. O, təmiz yazır.

**? Oxuduğunuz mətnin məzmunu üzrə 3 sual tərtib edin.**

**7. İmla yazın, sonra kitabla yoxlayın.**

Mətanət qırmızı alma gətirir. O, almanı yuyur. Alma təmizdir. Gəray da buradadır. Gəray əllərini yuyur. O oturur, oxuyur.

Mən yazıram. Mən qara qələmlə yazıram.

**8. Oxuyun və tərcümə edin.**

Mən — Bakıdayam. / otaqdayam. / oradayam. / buradayam. / kənddəyəm.

Biz — Bakıdayıq. / otaqdayıq. / oradayıq. / buradayıq. / kənddəyik.

O, — Bakıdadır. / oradadır. / buradadır. / otaqdadır. / kənddədir.

Qızlar — Bakıdadırlar. / oradadırlar. / buradadırlar. / otaqdadırlar. / kənddədirlər.

**Yadda saxlayın:**
Qalx. Qalxın.

**9. Oxuyun və sözlərin necə cəmlənməsinə diqqət yetirin.**

O, / Nigar / Qız — kitab oxuyur.

Onlar / Nigar, Nərgiz / Qız**lar** — kitab oxuyurlar.

O, / Qumru / Qız — qara (qırmızı) qələmlə yazır.

Onlar / Qəmər, Xanım / Qız**lar** — qara (qırmızı) qələmlə yazırlar.

**10. Öyrəndiyiniz sözlərlə cümlələr qurun.**

# §20. F f / *F f*

**dəf - tər, fut - bol, oy - na - yır, qa - yı - dır**

**1. [F] səsini tələffüz edin, sonra "Ff" hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaları Azərbaycan dilində adlandırın.**



**♦ Müəllimin köməyi ilə bu sözlərdə [f] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun.**

[fut], [dəf], [of], [uf], [fa], [fə], **[fit],** [fın], **[rəf],** [fəx], **[qıf],** [fər], [tof], [nif], **[fənn],** [fər], **[dəf],** [məf], **[fil],** [fir], [fon], **[fərq], [film]**

**♦ Necə bilirsiniz, göy rəngdə verilmiş hecaları söz hesab etmək olarmı? Tanış olmayan sözlərin mənasını öyrənməyə çalışın.**

**4. Şəkil üzrə mətn tərtib edib yazın. Uşaqlara [f] səsi ilə başlayan – *Famil*, *Fikrət*, *Fəxri*, *Fərid*, *Fərman*, *Firudin* kimi adlar verin.**



**5. [F] səsi ilə başlayan və içərisində [f] səsi olan sözlər tapıb deyin.**

**6. Oxuyun və tərcümə edin.**

Bura məktəbdir. Fərid, Əzəmət, Fəxri məktəbdədirlər. Onlar futbol oynayırlar. Fərman, Əfqan da oradadırlar.

Bu, Fəriddir. Fərid qabaqda oynayır. O, Əzəmətə baxır. Əzəmət qayıdır.

Firuzə ilə Afaq məktəbdən qayıdırlar. Qızlar əllərini təmiz yuyurlar. Onlar otururlar. Firuzə qırmızı qələmlə dəftərə “F f” yazır. Afaq Firuzənin əlinə baxır. O da dəftərə qara qələmlə “futbol, dəftər, fil...” yazır. Fatma xala qızların dəftərinə baxır.

**Söz ehtiyatı:**
*qabaqda*

**? Oxuduğunuz mətnin məzmunu üzrə yoldaşlarınıza suallar verin.**

**7. Şəkillərə baxın və cümlələri tamamlayın.**



Nigar __ __ .



Fidan __ __ .



Nərgiz __ __ .



Fərid __ __ .



Fikrət __ __ .



İt __ __ .

**8. Cümlələri tərcümə edin.**

1) Fərid futbol oynayır. 2) Fəridə Bakıdan qayıdır. 3) Fatma xala Nigarın dəftərinə baxır. 4) Qumru qırmızı qələmlə “xoruz, fil, quzu” yazır. 5) Əzəmət iki kitab, iki dəftər alır. 6) Fərman dayı kəndə qayıdır.

**9. Oxuyun.**



– Ana, bu kimdir?
– Nigar, bu, xaladır.
– Xalanın adı nədir?
– Xalanın adı Fatmadır.
– Ana, Fatma xala kənddən gəlir?
– Bəli, qızım, Fatma xala kənddən gəlir. Fəridə də gəlib.
– Fatma xala mənə nə gətirib?
– Qızım, Fatma xala bizə təzə fındıq gətirib.

**Söz ehtiyatı:**
*fındıq* *təzə*

## §21. S s / S s

| **sən,** | **siz,** | **si - nif,** | **dərs,** | **sa - at,** | **son - ra** |
|---|---|---|---|---|---|

**1. [S] səsini tələffüz edin, sonra “Ss” hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaları Azərbaycan dilində adlandıra bilərsinizmi?**



♦ **Müəllimin köməyi ilə bu sözlərdə [s] səsinin sayını və yerini müəyyənləşdirməyə çalışın.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. Bu hecaların içərisindən söz kimi işlənənləri tapın.**

[sa], [sə], **[su]**, [si], [sı], [so], **[as]**, **[əs]**, [us], **[sən]**, **[siz]**, [san], **[səs]**, **[sil]**, **[saz]**, **[sus]**, [məs], [sun], [sin], **[dost]**, **[son]**, **[dərs]**

**4*. [S] səsi ilə başlayan və içərisində [s] səsi olan sözlər tapıb deyin.**

**5*. Şəkildə gördükləriniz əsasında cümlələr qurun. Müəllimi *İsmət*, uşaqları *Sona*, *Sənan* və *Aysel* adlandırın.**




**6. Oxuyun və tərcümə edin.**

Bu bizim sinifdir. Sinif təmizdir.

Ana dili dərsidir. Əsmət, Sona, Səlim sinifdədirlər. Əsmər də gəlir. “Ana dili” kitabı Əsmərin əlindədir. O, kitabdan təzə dərsi oxuyur. Əsmər:

– Sitarə, al, sən də oxu!

Sitarə kitabı alır. O oxuyur. Sonra Sitarə bizə baxır. Sitarə:

– Qızlar, alın, siz də oxuyun.

Qızlar təzə dərsi oxuyurlar, əzbərləyirlər.

Dərsdən sonra qızlar məktəbdən qayıdırlar. Onlar bir saat oynayırlar. Sonra əllərini təmiz yuyurlar. Onlar stulda otururlar. Sənəmlə Əsmər yazırlar. Sona isə dərsini oxuyur, əzbərləyir. Sənubər xala qızlara alma, armud, nar gətirir. O, qızların dəftərlərinə baxır.

**? Oxuduğunuz mətnin məzmunu üzrə yoldaşlarınıza suallar verin.**

**Atalar sözü:**

*Bilik olmayan yerdə mərdlik də olmaz*

**7. Oxuyun və tərcümə edin.**

Mən — futbol / məktəbdə / Nigarla — oynayıram.

Biz — futbol / onlarla / məktəbdə — oynayırıq.

Mən — qələmlə / təmiz / dəftərdə — yazıram.

Biz — qələmlə / təmiz / kitabdan — yazırıq.

Mən — nənəmlə / kənddən / məktəbdən — qayıdıram.

Biz — kəndə / atamla / məktəbə — qayıdırıq.

**8. Verilmiş sözlərin mənasını izah edin.**

dayı, xala, əmi, nənə, baba, alır, gəlir, oturur, gətirir, yuyur, yatır, baxır, qayıdır

**9. İmla yazın, sonra kitabla yoxlayın.**

Saat birdir. Ana dili dərsidir. Fərid gəlir. O, iki kitab, bir dəftər gətirir. Fərid stulda oturur. Sonra o yazır. Fərid kitabdan yazır. O, təmiz yazır. Dərsdən sonra Fərid məktəbdən qayıdır.

**10. Tərcümə edin.**

Bir at, bir alma, iki kitab, iki sinif, bir qırmızı alma, bir qara qələm, iki qırmızı alma, qırmızı narlar, təmiz əl, təmiz sinif, təmiz otaq, təmiz dəftər, iki stul, iki albom, iki konfet, bir saat

## §22. Ş ş / Ş ş

**ax - şam, u - şaq - lar, qar - daş, ya - şa - yır, in - di**

**1. [Ş] səsini tələffüz edin, sonra "Şş" hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını deyin.**

     

     

♦ **Bu sözlərdə [ş] səsinin sayını və yerini müəyyənləşdirə bilərsinizmi?**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın.**

[şa], [şu], [şi], [şə], [şo], **[iş]**, **[aş]**, **[quş]**, **[diş]**, **[daş]**, **[baş]**, [şux], **[qış]**, **[şir]**, **[şam]**, **[şar]**, **[şad]**, **[şıq]**, [ləş], [riş], [şər]

**4*. [Ş] səsi ilə başlayan və içərisində [ş] səsi olan sözlər tapıb deyin.**

**5. Şəkil üzrə kiçik mətn tərtib edib yazın. Cümlələrdə *axşam*, *Şamxal dayı*, *Şamil*, *Bakı*, *Şəfəq* sözlərindən istifadə edin.**



**6. Oxuyun və tərcümə edin.**

Şəlalə Şamil dayının qızıdır. O, Şuşada anadan olub. Şəlalə indi Şəmkirdə yaşayır.

İndi yaydır. Şəlalə tətildədir. Şəlalənin əmisi Şamxal kənddədir. Axşam o, qatarla Bakıya qayıdır. Şəlalə də, qardaşı Şəmsi də Şamxal əmi ilə Bakıya qayıdırlar.

Bura Bakıdır. Şamxal əmi, Şəlalə, Şəmsi Bakıdadırlar.

Bu, Şakirdir. Bu isə Şəbnəmdir. Onlar Şamxal əmini, uşaqları qarşılayırlar. Axşam Şəfəq xala da gəlir. Fəridlə Əzəmət də buraya gəlirlər. Uşaqlar oynayırlar. Sonra onlar şəkillərə baxırlar, kitab oxuyurlar.

Saat ondur. Uşaqlar yatırlar.

**Söz ehtiyatı:**

| | | |
|---|---|---|
| *anadan olub* | *on* | *qatar* |
| *qarşılayırlar* | *şəkillərə* | |

**? Oxuduğunuz mətnin məzmunu üzrə 5 sual tərtib edin.**

**7. Əvvəlcə nəqli, sonra isə sual intonasiyası ilə oxuyun.**

Sən — kənddə / Bakıda / Şuşada — yaşayırsan ● / ?

Sən — dişlərini / əllərini / qabları — yuyursan ● / ?

Sən — Orxanla / kənddən / məktəbdən — qayıdırsan ● / ?

Sən — orada / futbol / uşaqlarla — oynayırsan ● / ?

**8. Sağ sütundakı sözləri sol sütundakılardan uyğun gələni ilə əlaqələndirib oxuyun.**

**Nümunə:** ***əllərini yuyur***

| | |
|---|---|
| əllərini | alır |
| alma | baxır |
| kitaba | yuyur |
| qələmlə | yazır |
| Bakıya | gəlir |
| axşam | yatır |
| quşlarla | oynayır |

**9. Oxuyun və müqayisə edin.**

təmiz — dəftər, sinif, otaq, əl, məktəb

Dəftər, Sinif, Otaq, Əl, Məktəb — təmizdir.

qırmızı — qələm, alma, lalə, şar, nar

Qələm, Alma, Lalə, Şar, Nar — qırmızıdır.

qara — at, qələm, toyuq, xoruz, tut

At, Qələm, Toyuq, Xoruz, Tut — qaradır.

**Yadda saxlayın:**

Salam, uşaqlar.

**10. Öyrəndiyiniz hərfləri və sözləri təkrar edin.**

## §23. Ü ü / *Ü ü*

**mü - əl - lim, yax - şı, da - nı - şır, üs - tün - də**

**1. [Ü] səsini tələffüz edin, sonra "Üü" hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyin.**

3











     

♦ **Müəllimin köməyi ilə bu sözlərdə [ü] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. [Ü] səsinin tələffüzündə diqqətli olun. Təhsil aldığınız dildə bu səs varmı?**

**[üz],** [mü], [zü], [kü], **[gün], [büz], [süz], [bük],** [yüd], **[düy],** [tü], [zük], [sün], [gü], [züm], **[yük], [tül], [düz], [düş], [gül],** [şü], **[süd]**

♦ **Necə bilirsiniz, göy rəngdə verilmiş hecaları söz hesab etmək olarmı? Tanış olmayan sözlərin mənasını öyrənməyə çalışın.**

**4. [Ü] səsi ilə başlayan və içərisində [ü] səsi olan sözlər tapıb deyin.**

**5. Verilmiş sözləri işlətməklə cümlələr qurun.**

***toyuq, xoruz, qara, təmiz, danışır, xala, futbol, axşam, sonra, siz***

**6. Oxuyun və tərcümə edin.**

Bu, Samir müəllimdir. O, məktəbdədir. Samir müəllim sinfə gəlir. Bu, bizim sinifdir. Sinif təmizdir. Stollar, stullar da təmizdir. Kitablar, dəftərlər, qələmlər stolların üstündədir.

Saat səkkizdir. Zəng olur. Ana dili dərsi başlanır. Müəllim uşaqlarla salamlaşır. Uşaqlar otururlar. Onlar kitaba baxırlar. Müəllim kitabdan oxuyur. Müəllimdən sonra Ülkər oxuyur. Ülkər dərsi yaxşı oxuyur. Gülər, Dürrə, Gündüz də kitabdan yaxşı oxuyurlar.

Müəllim dəftərlərə qırmızı qələmlə “Ü ü” yazır. Uşaqlar da dəftərlərində “Ü ü” yazırlar.

Müəllim Günayın dəftərinə baxır. Günay yaxşı yazır. Dürrə, Gündüz, Ülkər də təmiz yazırlar.

Saat birdir. Günay qardaşı ilə məktəbdən qayıdır.

**Söz ehtiyatı:**

salamlaşır səkkiz

**? Oxuduğunuz mətnin məzmunu üzrə 5 sual tərtib edin**

**Yadda saxlayın:**

Zəngdir. Dərs başlanır.

**7*. Şəkil üzrə kiçik mətn tərtib edib yazın. Qızlara *Ülkər*, *Günay* kimi adlar seçin.**



**8. Şəkillərə baxın və sözlərin necə cəmlənməsinə diqqət yetirin.**



ütü



ütülər



alma



almalar



düymə



düymələr



at



atlar

**9. Cümlələri tamamlayın və köçürün.**

1) Sən Solmaz nənə ilə kəndə gəlir.. . 2) Sən Gülnarla otaqda oynayır.. . 3) Sən mənə iki dəftər gətirir.. . 4) Siz Bakıda yaşayır.. . 5) Nərgiz, sən orada oturur.. ? 6) Fərid, sən indi yaxşı oxuyur.. . 7) Əzəmət, siz kənddən gəlir.. ?

# § 24. C c / *C c*

**ba - cı,  ba - la - ca,  i - kin - ci,  din - cə - lir**

**1. [C] səsini tələffüz edin, sonra “Cc” hərfini yazın.**

**2*. Azərbaycan dilində şəkildə gördüyünüz əşyaların adlarını bilirsinizmi?**



**♦ Müəllimin köməyi ilə bu sözlərdə [c] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə, sonra müstəqil tələffüz edin. [C] səsinin tələffüzündə diqqətli olun. Təhsil aldığınız dildə bu səs varmı?**

[cü], [cə], [ci], [əc], **[ac]**, [ca], **[uc]**, [cir], [ciz], **[cib]**, **[tac]**, **[sac]**, [təc], [cid], [cəl], [kəc], [bac], [cər], [co], **[can]**, [car], **[cır]**, **[cəld]**

**♦ Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın.**

**4. [C] səsi ilə başlayan və içərisində [c] səsi olan sözlər söyləyin.**

**5. Oxuyun və tərcümə edin.**

Cəmilə balacadır. O, Gəncədə yaşayır. Cəmilə ikinci sinifdə oxuyur. O, yaxşı oxuyur. Cəmilə sinifdə birincidir.

Cəmilənin qardaşı Nicat da balacadır. O, nənəsinin yanındadır. Nicat birinci sinifdə oxuyur. O, dərslərini yaxşı oxuyur, yaxşı yazır.

İndi yay tətilidir. Cəmilə ata-anası ilə kənddədir. Onlar burada dincəlirlər. Cəmilə qardaşı Nicat, balaca bacısı Aytacla oynayır. Cəmilə gündə iki saat kitab oxuyur. Cəmilənin qardaşı Nicat isə yazı yazır.

Uşaqlar kənddə bizə də gəlirlər. Biz onlarla oynayırıq, dincəlirik.

**? Oxuduğunuz mətnin məzmunu üzrə 5 sual tərtib edin.**

**Atalar sözü:**

*Müəllim ikinci atadır.*

**6. Şəklə baxın. Gördükləriniz əsasında cümlələr qurun. İçərisində [c] səsi olan adlardan istifadə edin.**



**7*. Rollar üzrə oxuyun.**

Aytac: – Salam, Fidan.
Fidan: – Salam, Aytac.
Aytac: – Fidan, bu kimdir?
Fidan: – Aytac, bu, mənim balaca qardaşımdır.
Aytac: – Qardaşının adı nədir?
Fidan: – Onun adı Cəfərdir. Yaxşı addır?
Aytac: – Əlbəttə, yaxşı addır. Fidan, tanış ol, bu isə mənim bacımdır. Onun adı Qumrudur.
Fidan: – Aytac, siz burada dincəlirsiniz?
Aytac: – Bəli, ata-anam da buradadır. Biz bu axşam Gəncəyə qayıdırıq. Siz necə, qayıdırsınız?
Fidan: – Yox, Aytac, biz iyulda gələcəyik. Sizə yaxşı yol!
Aytac: – Salamat qalın!

**Söz ehtiyatı:**

| | |
|---|---|
| tanıyırsan | yaxşı yol |
| gələcəyik | salamat qalın |

**8.** **Öyrəndiyiniz hərfləri və sözləri təkrar edin. İmla yazmağa hazırlaşın.**

**9.** ***Balaca*, *üztündə*, *axşam*, *bacı*, *əzbərləyin*, *yuyur*, *müəllim*, *lalə* sözlərini işlətməklə cümlələr qurun.**

**Yadda saxlayın:**
Tanış olun.
Tanış olaq.

## §25. Ç ç / Ç ç

**üç, çox (çox - lu), çay, i - çir, şə - kil, rəng - lə - yir, çə - kir**

**1.** **[Ç] səsini tələffüz edin, sonra “Çç” hərfini yazın.**

**2*.** **Şəkildə gördüyünüz əşyaların adlarını deyə bilərsinizmi?**



♦ **Bu sözlərdə [ç] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3.** **Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. Bu hecaların içərisindən söz kimi işlənənləri tapın.**

[çi], [ça], [ço], [çu], [çü], [çı], **[aç], [iç], [üç], [uç], [çay], [çək]**, [çıq], **[çal], [çox], [saç], [qaç]**, [qıç], **[çat], [çil]**, [çaq], **[çıx], [çim]**, [çin]

**4.** **[Ç] səsi ilə başlayan və içərisində [ç] səsi olan sözlər söyləyin.**

**5*.** **2-ci çalışmadakı şəkillərdə gördüyünüz əşyaların adlarını yazın. Hansı sözləri yaza bilmədiniz? Səbəbi barədə düşünün.**

**6*.** **Şəkil üzrə kiçik mətn tərtib edib yazın. İçərisində [ç] səsi işlənən sözlərdən istifadə etməyə çalışın. Oğlanlara ad qoyun.**



**7. Oxuyun və tərcümə edin.**

Bacım balacadır. Onun adı Çinarədir. Çinarə ikinci sinifdə oxuyur. O, əlaçıdır. Çinarə yaxşı şəkillər də çəkir.

Bu gün atam çoxlu karandaş aldı. Karandaşlar qırmızı, qara, yaşıldır. Mən isə albom aldım. Biz karandaşları və albomları Çinarəyə gətirdik.

İndi saat üçdür. Biz çay içirik. Çinarə şəkil çəkir. O, iki at şəkli çəkir, sonra atları rəngləyir.

Bu, Qıratdır. Çinarə onu qırmızı karandaşla rəngləyir.

Bu isə Düratdır. Çinarə Düratı qara karandaşla rənglədi.

Stolun üstündə şəkil çoxdur. Biz şəkillərə baxırıq.

Bu, Dədə Qorquddur. Bu, Nizami, bu isə Füzulidir. Çinarə bu şəkilləri çox yaxşı çəkib.

**Söz ehtiyatı:**

| | |
|---|---|
| bu gün | əlaçıdır |
| yaşıl | çəkib |

**? Oxuduğunuz mətnin məzmunu üzrə 5 sual tərtib edin.**

**Atalar sözü:**
*At igidin yoldaşıdır.*

**8. Oxuyun.**

Mən — dincəlir**əm.** / rəngləyir**əm.** / şəkil çəkir**əm.**

Biz — dincəlir**ik.** / rəngləyir**ik.** / şəkil çəkir**ik.**

| | | | |
|---|---|---|---|
| Sən | dincəlir**sən.**<br>rəngləyir**sən.**<br>şəkil çəkir**sən.** | Siz | dincəlir**siniz.**<br>rəngləyir**siniz.**<br>şəkil çəkir**siniz.** |
| O | dincəl**ir.**<br>rənglə**yir.**<br>şəkil çək**ir.** | Onlar | dincəlir**lər.**<br>rəngləyir**lər.**<br>şəkil çəkir**lər.** |

**9. Şəkillərə baxıb cümlələri tamamlayın.**


Zümrüd – – .


Zümrüd – – .


Zümrüd – – .


Orxan – – .


Orxan – – .


Alma, armud – – .

**Yadda saxlayın:**
Sənin adın nədir?
Sizin adınız nədir?

**10. Suallara cavab verin.**

– Sənin adın nədir?
– Sənin atanın adı nədir?
– Sənin bacının adı nədir?
– Sənin qardaşının adı nədir?
– Sizin müəlliminizin adı nədir?
– Sənin xalanın, dayının, əminin adı nədir?

# §26. E e / *Ee*

**beş, tez, ge - dir, ye - yir, ge - yi - nir**

**1. [E] səsini tələffüz edin, sonra "Ee" hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını deyə bilərsinizmi?**








5







♦ **Bu sözlərdə [e] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. [E] səsini düzgün tələffüz edin.**

**[el]**, **[et]**, [te], [le], [ke], **[beş]**, **[bel]**, **[en]**, **[sel]**, **[de]**, [çe], **[tez]**, [ge], **[keç]**, **[seç]**, **[ye]**, [re], [me], [tel], **[yel]**, **[yer]**

♦ **Necə bilirsiniz, göy rəngdə verilmiş hecaları söz hesab etmək olarmı? Tanış olmayan sözlərin mənasını öyrənməyə çalışın.**

**4. [E] səsi ilə başlayan və içərisində [e] səsi olan sözlər söyləyin.**

**5. 2-ci çalışmadakı şəkillərə baxın. Hansı sözləri yaza bilərsiniz? Bəs qalan sözləri niyə yaza bilmirsiniz? Fikirləşin.**

**6. Oxuyun və tərcümə edin.**

Saat ikidir. Elxan telefonla danışır. O, Elşənlə danışır. Elxan deyir:

– Elşən, indi saat ikidir. Tez geyin, məktəbə gəl. Biz saat üçdə ekskursiyaya gedirik. Yeganə müəllimə də bizimlə gedir.

Elxan əllərini yuyur, yemək yeyir. Sonra o geyinir. Elxan təzə kostyumunu geyinir. Onun kostyumu qaradır.

Elxan məktəbə Şəbnəmlə gedir. Şəbnəm Elxanın bacısıdır. O, bala-

cadır. Elxanla Şəbnəm avtobusla gedirlər.

Bura məktəbdir. Saat üçdür. Uşaqlar məktəbdədirlər. Elçin müəllim də buradadır. Elşənlə Aytac da gəlirlər. Aytac balaca qardaşını da gətirir. Onun adı Elmandır. Elman üçüncü sinifdə oxuyur. Aytac deyir:

– Uşaqlar, tanış olun, bu mənim qardaşım Elmandır. Elman da bizimlə gedir. Elman yaxşı şəkillər çəkir.

Maşın gəlir. Uşaqlar gedirlər.

**7. Mətn üzrə suallara cavab verin.**

1. Elxan kimlə danışır?
2. Elxan Elşənə nə deyir?
3. Saat neçədir?
4. Elxan məktəbə kimlə gedir?
5. Uşaqlar məktəbə nə ilə gedirlər?
6. Aytacın qardaşının adı nədir?
7. Aytacın qardaşı neçənci sinifdə oxuyur?

**Söz ehtiyatı:**

| | |
|---|---|
| neçə? | nə edir? |
| neçənci? | kimlə? |

**Yadda saxlayın:**
Saat neçədir?

**8*. Şəkil üzrə mətn tərtib edin. Mətnin tərtibində "Ata nə edir? Bəs ana nə edir? Ana kim ilə danışır? Elçin nə edir? O, nə şəkil çəkir? Şəkil necədir?" kimi suallardan istifadə edin.**



**9. Tamamlayın.**

Şəkil — burada .. .
Şəkil — orada..
Şəkil — stolun üstündə.. .
Şəkil — şkafda.. .

Bu, — əmi.. ?
Bu, — dayı.. ?
Bu, — xala.. ?
Bu, — kim.. ?

Onlar — sinifdə.. .
Onlar — otaqda.. .
Onlar — dərsdə.. .
Onlar — parkda.. .

Bu, — qara.. ?
Bu, — nə.. ?
Bu, — yaxşı.. ?
Bu, — necə.. ?

**10.** ***Qardaş***, ***uşaqlar***, ***yaxşı***, ***təmiz***, ***qırmızı***, ***qara***, ***yaşıl*** **sözlərini işlətməklə cümlələr qurun.**

**11. Tapmacanın cavabını tapın:**

Yemir, içmir,
Gecə-gündüz işləyir.



## §27. V v / V v

**ev, var, və - tən, və, se - vir - lər, bi - lir**

**1. [V] səsini tələffüz edin, sonra "Vv" hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını deyə bilərsinizmi?**













♦ **Bu sözlərdə [v] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. Həm də söz kimi işlənən hecaların mənasını müəyyənləşdirməyə çalışın.**

[əv], **[ev], [ov], [var], [vur],** [vat], **[ver], [val], [vaxt],** [və], [vi], [vol], [vü], [vən], [van], [ved], [lov], [rov], [dov], **[sev], [div], [qov]**

**4. [V] səsi ilə başlayan və içərisində [v] səsi olan sözlər söyləyin.**

**5*. Şəkil üzrə mətn tərtib edin. Cümlələrdə *Vasif*, *Vaqif*, *Vidadi*, *Xavər*, *Sevinc*, *Vüsalə* kimi adlardan və içərisində [v] səsi olan sözlərdən istifadə edin.**



**6. Oxuyun və lüğətin köməyi ilə tərcümə edin.**

Bura İvanovka kəndidir. Burada çoxlu evlər, iki məktəb var. Kənddə balaca bir stadion da var. Uşaqlar dərsdən sonra burada futbol oynayırlar.

Bu kənddə azərbaycanlılar və ruslar yaşayırlar. Kənd İsmayıllı rayonundadır. Valeri və Oksana, Sona və Gündüz bu kənddə yaşayırlar. Valeri ilə Oksana rusdurlar. Sona və Gündüz isə azərbaycanlıdırlar. Bu uşaqlar bir məktəbdə oxuyurlar. Oksana Valerinin bacısıdır. O, ikinci sinifdə oxuyur. Oksana yaxşı oxuyur. O, əlaçıdır, dərslərindən “5” alır. Oksana Azərbaycan dilində təmiz danışır. Valeri də Azərbaycan dilini yaxşı bilir. Onlar Azərbaycan dilini çox sevirlər. Oksana və Valeri Gündüz və Sona ilə dostluq edirlər. Onlar dostları ilə azərbaycanca danışırlar. Uşaqlar Azərbaycan dilində çoxlu şeir də bilirlər.

Valeri və Oksana deyirlər:

– Azərbaycan bizim vətənimizdir. Biz vətənimizi çox sevirik.

**Söz ehtiyatı:**

| | |
|---|---|
| dost | əlaçı |
| dostluq edirlər | şeir |

**? Oxuduğunuz mətnin məzmunu üzrə 5 sual tərtib edin.**

**Atalar sözü:**

*Min dost – azdır, bir düşmən – çoxdur.*
*Dostu çox olanın gücü çox olar.*

**7. Tərcümə edin.**

1. Validə xanım Yevlaxda yaşayır. Onun qızı Vüsalə yaxşı oxuyur. Vüsalə vətənini və dilini çox sevir.

2. Sevil kotlet yeyir. O, kotleti və kolbasanı çox sevir. O, balaca bacısı üçün konfet alır. Onun bacısı konfeti və tortu çox sevir.

**8. Oxuyun və əzbərləyin.**

## LAYLA

Layla, beşiyim layla,
Evim, eşiyim layla.
Sən get şirin yuxuya,
Çəkim keşiyin, layla.
Balam layla, a layla,
Gülüm layla, a layla.

Layla dedim yatasan,
Qızılgülə batasan.
Qızıl gülün içində
Şirin yuxu tapasan.
Balam layla, a layla,
Gülüm layla, a layla.

**Söz ehtiyatı:**

| | |
|---|---|
| layla | sən get şirin yuxuya |
| beşik | çəkim keşiyin |

**Yadda saxlayın:**
Sən cavab ver.

**9. Şəklə baxıb aşağıdakı suallara cavab verin.**



1. Otaqda neçə stul var?
2. Otaqda divan varmı?
3. Stolun üstündə nə var?
4. Otaqda televizor varmı?
5. Burada telefon da varmı?
6. Otaqda kim var?
7. Ata nə edir?
8. Televizor stolun üstündədir?
9. Otaqda neçə şkaf var?
10. Portret kimindir?

**10. Dialoqu rollar üzrə oxuyun.**

Ə: – Salam, Vüqar.
V: – Salam, Əzəmət, necəsən?
Ə: – Yaxşıyam, Vüqar, sən necəsən?
V: – Mən də yaxşıyam.
Ə: – Evdən gəlirsən?
V: – Bəli, evdən gəlirəm. Məktəbə gedirəm.
Ə: – Vüqar, evdə kim var? Vaqif evdədir?
V: – Evdədir. Babək də, Fərid də bizdədirlər. Onlar bayraq şəkli çəkirlər.
Ə: – Yaxşı, Vüqar, mən də sizə gedirəm. Sən də tez qayıt. Tramvayla gedirsən?
V: – Yox, Əzəmət, avtobusla gedirəm. Avtobus tez gedir. Sən get, mən də iki saatdan sonra qayıdıram.

## § 28. Ö ö / Ö ö

**dörd, bö - yük, gö - zəl, ve - rir, ki - tab - xa - na**

**1. [Ö] səsini tələffüz edin, sonra "Öö" hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını deyin.**




♦ **Bu sözlərdə [ö] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. İçərisində [ö] səsi olan sözlər deyin.**

**4.** **Hecaları əvvəlcə müəllimlə birgə, sonra bir neçə dəfə müstəqil oxuyun. [Ö] səsini düzgün tələffüz edin. Bu səs təhsil aldığınız dildə varmı?**

**[öt], [ön],** [ös], [öc], **[öl], [öz],** [ör], [tö], [sö], [zö], **[söz], [döz], [göz], [sön], [dön],** [gön], **[növ],** [löv], [zön], **[göl], [köz],** [köy], **[döy], [dörd]**

♦ **Hecaların içərisindən söz kimi işlənənləri tapın və mənalarını öyrənin.**

**5.** **Oxuyun və tərcümə edin.**

Bizim məktəbimiz böyük və gözəldir. Məktəbimizdə çoxlu sinif otaqları, böyük bir kitabxana var. Kitabxana dörd otaqdan ibarətdir. Birinci otaq balacadır. Orada iki şkaf, iki stol, bir televizor var. Kitabxanaçı Könül xala bu otaqda oturur. O, burada uşaqlara kitab verir. Uşaqlar Könül xalanı çox sevirlər. O da uşaqları çox sevir.

Saat dörddür. Rövşən və Ömər kitabxanaya gəlirlər. Onlar Könül xalaya salam verirlər. Rövşən dörd kitab, Ömər isə üç kitab götürür. Rövşən və qardaşı Ömər kitabları çox sevirlər.

İkinci otaqda dörd şkaf, dörd stol, çoxlu stullar var. Üçüncü və dördüncü otaqlar da böyükdür. Bu otaqlarda çoxlu şkaflar var. Şkaflarda kitablar saxlanılır. Bunlar dərs kitablarıdır. Sentyabrda kitabxanaçı bu kitabları uşaqlara verir. Kitabxanaçı deyir:

– Uşaqlar, kitabları yaxşı saxlayın! Onları sizdən sonra bacı və qardaşlarınız oxuyacaq.

**Söz ehtiyatı:**

ibarətdir — saxlanılır

kitabxanaçı — deyir

**6.** **Mətn üzrə suallara cavab verin.**

1. Məktəbiniz necədir?
3. Kitabxanada neçə otaq var?
4. Kitabxanaçının adı nədir?
5. Birinci otaqda nə var?
6. Uşaqlar bu otaqda nə edirlər?
7. Üçüncü və dördüncü otaqlar necədir?
8. Kitabxanaçı uşaqlara nə deyir?

**Söz ehtiyatı:**

necədir?



**Atalar sözü:**

*Çox oxuyan çox bilər.*

**7. Tərcümə edin.**

İndi gəlir, axşam gedir, sonra yeyir, tez oturur, indi gətirir, dərsini oxuyur, əzbərləyir, kənddə dincəlir, yaxşı və təmiz yazır, televizora baxırsan, tez gəlirik, çoxlu yeyirsiniz, tez geyinirəm, axşam qayıdıram, təmiz geyinirik, atlara baxırıq, evə gedirsiniz.

**Yadda saxlayın:**

Kitabları qoruyun.

**8*. Şəkil üzrə kiçik bir mətn tərtib edib yazın. İçərisində [ö] səsi olan sözlərdən istifadə etməyə çalışın.**



**9. Nöqtələrin yerinə verilmiş sözlərdən uyğun gələnini artırmaqla cümlələri oxuyun, sonra tərcümə edin.**

1) Uşaqlar stadionda ... oynayırlar. 2) Onlar saat dörddə ... gedirlər. 3) Gəncə ... vətənidir. 4) Rövşənin bacısı ikinci ... oxuyur. 5) Ömər ... avtobusla Bakıya gedir. 6) Ülvi ... geyinir və gedir. 7) Atam mənə ..., ... karandaşlar aldı.

**Sözlər:** *teatr, Nizaminin, futbol, axşam, sinif, tez, qırmızı, qara*

**10*. Bayatını əzbərləyin.**

Əzizim, Vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Qürbət cənnət olsa da,
Yenə də Vətən yaxşı.

# §29. Ğ ğ / Ğ ğ

**baş, bo - ğaz, xəs - tə, ağ - rı - yır, ağ - la - yır, bağ - ça, mey - və**

**1. [Ğ] səsini tələffüz edin, sonra “Ğğ” hərfini yazın.**

**2*. Şəkillərə diqqətlə baxın. İçərisində [ğ] səsi olan sözləri tapıb deyin.**














♦ **Bu sözlərdə [ğ] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Müəllimlə birgə tələffüz edin. Təhsil aldığınız dildə [ğ] səsi varmı?**

**[ağ]**, [oğ], [ğa], [ğı], [ğu], [ğın], [ğun], **[sağ]**, **[bağ]**, **[dağ]**, **[boğ]**, **[yağ]**, [ğır], **[yığ]**, [zağ], [ğal], [ğac], [çağ], [ğul], [ğıl], [ğan]

♦ **Bu hecaların içərisindən həm də söz kimi işlənənləri tapın.**

**4*. İçərisində [ğ] səsi olan sözlər tapın. Fikirləşin, bu səslə başlayan sözlər deyə bilərsinizmi?**

**5. Oxuyun.**



Suğra Toğrulun bacısıdır. Onun dörd yaşı var. Suğra bağçaya gedir. Bağçada Suğranı çox sevirlər. Burada onun çoxlu dostları var. Suğra da dostlarını, müəllimlərini çox sevir.

Bu gün Suğra evdədir. O, xəstədir. Suğranın boğazı ağrıyır. Suğra yataqdadır. Anası Təranə xala Suğraya qulluq edir. Ona tez-tez çay, meyvə verir. İndi Suğranın qızdırması var. Onun

başı da ağrıyır. Suğra yatır. Təranə xala onun yanında oturur, başını sığallayır. Suğra yuxuda danışır:

– Ana, düzdür, sən mənə dondurma alacaqsan? Axı mən dondurmanı çox sevirəm. Mən tezliklə sağalacağam.

Təranə xala gülümsünür. O, Suğranın başını sığallayır:

– Əlbəttə, alacağam, gözəl qızım. Sən tez sağal, sənə dondurma da, gəlincik də alacağam.

Suğra yuxuda gülümsünür.

**Söz ehtiyatı:**

| | |
|---|---|
| yataqdadır | qızdırma |
| qulluq edir | başını sığallayır |

**? Oxuduğunuz mətnin məzmunu üzrə 5 sual tərtib edin.**

**Yadda saxlayın:**

Bağışlayın.
Sağ ol. Sağ olun.

**6*. Oxuyun. Bu adları eşitmisinizmi? Bu sözləri işlətməklə cümlələr qurun.**

Koroğlu, Çənlibel, Qırat, Misri qılınc, Qaçaq Nəbi, Bozat, Aynalı

**7*. Şəkil üzrə kiçik mətn tərtib edib yazın. İçərisində [ğ] səsi olan sözlərdən istifadə etməyə çalışın.**



**8. Verilmiş sözlərdən bir neçəsini seçib cümlələrdə işlədin.**

rəngləyir, üstündə, şəkil çəkir, danışır, meyvə, kitabxana, verir, gedir, yeyir, sonra, qayıdır, bağça, yatır.

**9. Suallara cavab verin.**

1. Sənin adın nədir?
2. Sənin neçə yaşın var?
3. Sizin evinizdə televizor, telefon varmı?
4. Sənin atan müəllimdir?
5. Sən saat neçədə məktəbə gedirsən?
6. Sənin bacın saat neçədə bağçadan gəlir?
7. Sənin balaca qardaşın bağçaya kimlə gedir?
8. Sənin bacın (qardaşın) bağçada ağlayır?
9. Sən rus dilini bilirsən?
10. Sən dərslərini necə oxuyursan?

**10. Oxuyun.**

Mənim < başım, dişim / boğazım > ağrıyır.

Sənin < başın, dişin / boğazın > ağrıyır.

Onun < başı, dişi / boğazı > ağrıyır.

**11. Şeiri əzbər öyrənin.**



## KUKLA

Ay uzunsaç, qaragöz,
Ağıllı kuklam mənim.
Gəl "əlifba" oxuyaq,
Sən şagird ol, mən müəllim.
Bir de görüm: "A",
Ay gözəl kukla,
Yoxsa səninlə
Danışmaram a...

**C. Məmmədov**

**Söz ehtiyatı:**

| | |
|---|---|
| qaragöz | ağıllı |
| uzunsaç | yoxsa |

**12. Tapmacanın cavabını tapın.**

Çağırdım bərkdən,
Səs gəldi kənddən.
Ağzı sümükdən,
Saqqalı ətdən.



**Söz ehtiyatı:**
çağırmaq
sümük
saqqal
ağız

# §30. H h / *Hh*

**ha - mı, hə - yət, ha - zır - la - şı - rıq, hün - dür, şə - hər,
sə - hər, da - yan - dıq, qo - yu - ruq**

**1. [H] səsini tələffüz edin, sonra "Hh" hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını deyə bilərsinizmi?**




♦ **Bu sözlərdə [h] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun. [H] səsini düzgün tələffüz edin. Təhsil aldığınız dildə bu səs varmı?**

[ha], **[hə],** [hü], [hö], **[ah],** [oh], [hey], **[hər], [heç], [hör],** [neh],
[cöh], **[şah],** [hin], [hid], [mah], [təh], [həc], [möh], [töh], **[himn]**

**4. [H] səsi ilə başlayan və içərisində [h] səsi olan sözlər söyləyin.**

**5. Şəklə baxıb "Bakı – 19 yanvar gecəsi" mövzusunda mətn tərtib edin. Mətndə *hücum*, *qara yanvar*, *tanklar*, *dəhşətli silah* sözlərindən istifadə edin.**



**6. "And yerimiz" mətnini oxuyun.**

Bu gün yanvarın 18-dir. Biz Şəhidlər xiyabanına getməyə hazırlaşırıq. Artıq saat dörddür. Hamı məktəbin həyətindədir. Biz avtobusla gedirik. Həcər müəllim də bizimlə gedir. Hamının əlində qırmızı qərənfillər var.

Bura Şəhidlər xiyabanıdır. Buradan bütün şəhər görünür.

Bu gün Şəhidlər xiyabanında çoxlu uşaq var. Həsən, İlahə, Səbuhi, Sübhan, Həlimə, Mehdi də buradadırlar.

İndi xiyabandan bağça uşaqları keçirlər. Onları buraya müəllimləri və ata-anaları gətiriblər. Bu balaca uşaqların da əllərində qırmızı qərənfillər var.

Biz: "Allah sizə rəhmət eləsin, Şəhidlər!" – deyib xiyabana daxil oluruq. Hamı kədərlidir. Biz ehtiramla məzarların önündən keçirik. Qırmızı qərənfilləri şəhidlərin məzarı üzərinə qoyuruq. İlqar və Larisanın məzarları önündə hamımız dayanırıq. Mən qırmızı qərənfilləri İlqar və Larisanın məzarları üzərinə qoyuram.

Saat altıda biz Şəhidlər xiyabanından qayıdırıq.

**Söz ehtiyatı:**

| | |
|---|---|
| bütün | görünür |
| keçirlər | məzarların önündə |
| daxil oluruq | kədərli |

**Atalar sözü:**
*İgid ölər, adı qalar.*

**7. Suallara cavab verin.**

1. Uşaqlar hara hazırlaşırlar?
2. Uşaqlar Şəhidlər xiyabanına kimlə gedirlər?
3. Uşaqların əllərində nə var?
4. Şəhidlər xiyabanı harada yerləşir?
5. İndi xiyabandan kimlər keçir?
6. Uşaqlar xiyabanda nə edirlər?
7. Uşaqlar kimlərin məzarı önündə dayanırlar?
8. Uşaqlar qırmızı qərənfilləri hara qoyurlar?

**Söz ehtiyatı:**
hara? harada?

**8. Özünüzü yoxlayın və düzgün variantı yazın.**

dör.. (d, t), dəf..ər (d, t), mək..əb (d, t), armu..(d, t), qız..ar (d, l), uşa..(q, x), üs..ündə (t, d), xəs..ə (t, d), rəngl..yir (i, ə), ağl.. yır (a, ı), yaş.. yır (a, ı) oyn..yır (u, a), əzbərl.. yir (ə, i).

**9. Əzbərləyin.**



**DURNALAR**

Durnalar, ay durnalar,
Ötürsüz diyar-diyar.
Deyə biləsiz, bəlkə,
Yaxşıdır hansı ölkə?
Durnalar cavab verdi:
– Vətən ən gözəl yerdi.

**Soltan Abbas**

**10. Cümlələri tamamlayın və tərcümə edin.**

1) Uşaqlar.. əllərində qırmızı qərənfillər var. 2) Həcər qərənfillər.. qırmızı karandaşla rənglədi. 3) Məktəb.. həyəti böyükdür. 4) Bacım kitablar.. stolun üstünə qoyur. 5) Qızlar konsert.. qayıdırlar. 6) Aysel bağça.. hazırlaşır. 7) Hamı məktəbin həyətin.. dayanır.

**11.** **Oxuyun və tərcümə edin.**

Biz — evə / şəhərə / kəndə / məktəbə — hazırlaşırıq.

Siz — dərsə / konsertə / teatra / bağçaya — hazırlaşırsınız.

Onlar — Şəhidlər xiyabanına / ekskursiyaya / mağazaya / kitabxanaya — hazırlaşırlar.

**12.** **Ümummilli liderimiz Heydər Əliyevə həsr olunmuş şeirlər tapıb əzbərləyin. Onun haqqında danışın.**

## §31. P p / *Pp*

**pal - tar, pa - paq, pax - la - va, bay - ram, bi - şi - rir, so - yu - nur, qa - pı**

**1.** **[P] səsini tələffüz edin, sonra "Pp" hərfini yazın.**

**2*.** **Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyə bilərsinizmi?**



♦ **Tapdığınız sözlərdə [p] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun.**

[pe], [pə], [püs], [əp], [pi], **[ip], [öp], [sap],** [pal], [pax], [pız], **[çöp],** [pen], [pin], **[plov], [plaş], [qrup], [turp], [pas],** [pən], [proq], **[tap]**

♦ **Necə bilirsiniz, göy rəngdə verilmiş hecaları söz hesab etmək olarmı? Onların içərisində mənasını bilmədiyiniz sözlər varmı?**

**4. [P] səsi ilə başlayan və içərisində [p] səsi olan sözlər söyləyin.**

**5*. Şəklə baxıb cümlələr qurun. Cümlələrdə *Novruz bayramı*, *tonqal*, *hoppanmaq* sözlərindən istifadə edin.**



**6. "Əziz bayramımız" mətnini oxuyun və tərcümə edin.**

Bu gün axır çərşənbədir. Üç gündən sonra bayramdır – Novruz bayramı! Novruz Azərbaycan xalqının ən əziz bayramıdır. Bu bayramda hamı sevinir, şadlanır.

Saat birdir. Pərvanə ilə Püstə məktəbdən qayıdırlar. Şəfəq xala qapını açır. Onlar evə daxil olurlar. Qızlar paltolarını və papaqlarını soyunurlar. Sonra paltarlarını dəyişirlər, əllərini yuyurlar.

Pərvanə tez mətbəxə keçir. Şəfəq xala buradadır. O, paxlava bişirir. Pərvanə anasına kömək edir.

Püstə xonçanı düzəldir. O, xonçaya şəkərbura, qoğal, çoxlu konfet, qoz, fındıq qoyur. Sonra isə səmənini xonçanın ortasına yerləşdirir.

Qızlar deyirlər: "Ana, bayramın mübarək!". Ana qızları öpür.

Saat beşdir. Paxlava artıq hazırdır. Püstə xonçaya paxlava da qoyur. Hamı bayram paltarını geyinir. Zəng çalınır. Püstə qapını açır. Əhməd dayı gəlir. Onun əlində bayram şamları var. Püstə çox sevinir. O, şamları tez xonçaya qoyur.

Axşamdır. Hamı bayrama hazırdır. Onlar həvəslə bayram süfrəsinə otururlar və bayram edirlər.

Qapı döyülür. Püstə qapını açır. Uşaqlar papaq atırlar. Şəfəq xala papaqlara bayram payı qoyur. Püstə papaqları qapının ağzına qoyur və qapını örtür.

**Söz ehtiyatı:**

| | |
|---|---|
| döyülür | axır çərşənbə |
| dəyişirlər | həvəslə |
| mətbəx | yerləşdirmək |
| kömək edir | əziz |
| şadlanır | bayram süfrəsi |
| bəzəyir | sevinir |

**7. Suallara cavab verin.**

1. Novruz bayramı haqqında nə bilirsiniz?
2. Novruz bayramına necə hazırlaşırlar?
3. Siz də evinizdə səməni qoyursunuzmu?
4. Novruz xonçasına nə qoyursunuz?
5. Novruz bayramı nə vaxt olur?

**Atalar sözü:**

*Bu günün işini sabaha qoyma.*

**8*. Azərbaycan dilində bildiyiniz geyim əşyalarının adlarını deyin. Bunlardan hansı təhsil aldığınız dildə də işlənir?**

**9*. Azərbaycanda Novruz bayramından başqa, daha hansı bayramlar qeyd olunur? Başqa ölkələrdə qeyd olunan hansı bayramlar barədə məlumatınız var?**

**Yadda saxlayın:**
Bayramınız mübarək!

**10. Rollar üzrə oxuyun. Dialoqun məzmununu danışın.**

– Salam, Nigar.
– Salam, Ülkər.
– Nigar, hara hazırlaşırsan?
– Mağazaya gedirəm. Çörək, tort, çay alacağam. Sən də gedirsən?
– Yox, mən getmirəm. Anam paxlava bişirir. Mən ona kömək edəcəyəm. Xahiş edirəm, bizə də bir dənə çörək al.
– Yaxşı, Ülkər, alaram. Məndən Sona xalaya salam de.
– Deyərəm, Nigar, sağ ol.
– Sən də sağ ol.

**Söz ehtiyatı:**

| | |
|---|---|
| xahiş edirəm | getmirəm |

**11. Tərcümə edin.**

1) Biz 8 Mart bayramına hazırlaşırıq. 2) Novruz bayramında hamı sevinir, şadlanır. 3) Biz Novruz bayramında kəndə gələcəyik. 4) Bayramda atam qardaşıma və mənə təzə paltar aldı. 5) Uşaqlar məktəbdə Müstəqillik Gününə hazırlaşırlar. 6) Mən bayramda müəllimə bir dəstə çiçək verdim. 7) Anam ağ qərənfilləri çox sevir.

**Söz ehtiyatı:**

| | |
|---|---|
| Müstəqillik Günü | ağ |
| bir dəstə çiçək | |

**12. Şeiri oxuyun, sonra əzbərləyin.**



## SƏMƏNİ

Ay səməni, saxla məni
İldə cücərdərəm səni.
Ayaq basdın ölkəmizə,
Bol-bol şənlik gətir bizə.
Sevincimiz başdan aşsın,
Bahar, Günəş qucaqlaşsın.

**Abdulla Şaiq**

**Söz ehtiyatı:**

| | |
|---|---|
| cücərdərəm | bahar |
| bol-bol şənlik | saxla |
| qucaqlaşsın | ildə |

**13.** ***Xəstə*, *qoyuruq*, *həyat*, *dayanırıq*, *hamı*, *ağlayır*, *ağrıyır*, *bişirir*, *qapı*, *açır* sözlərini işlətməklə cümlələr qurun və yazın.**

**15. İmla yazın, sonra kitabla yoxlayın.**

Vətənimiz Azərbaycan böyük və gözəldir. Azərbaycanın paytaxtı Bakı şəhəridir. Bakı qədim və gözəl şəhərdir. Bakıda hündür evlər, gözəl küçələr, parklar, teatrlar, böyük zavodlar var. Şəhərin ən hündür yerində Şəhidlər xiyabanı yerləşir. Buradan bütün şəhər görünür.

**16. Şeiri əzbər öyrənin.**

## GƏL, BAHAR!

Gözəl bahar,
Gözəl bahar!
Darıxırıq,
Tez gəl, bahar!

Çətir-çətir
Güllər gətir.
Otaqlara
Dolsun ətir.

Sənsən əziz,
Şən nəğməmiz.
Gözləyirik
Yolunu biz.

Gözəl bahar,
Tez gəl, bahar!
Bağçamızda
Dincəl, bahar!

**Teymur Elçin**

**Söz ehtiyatı:**

darıxırıq
gözləyirik
şən nəğməmiz
ətir

## §32. J j / *J j*

**na - ğıl, hərf, se - vin - di, öy - rən - di, sa - bah, qaç - dı, gö - tür - dü**

**1. [J] səsini tələffüz edin, sonra "Jj" hərfini yazın.**

**2*. Şəkildə gördüyünüz əşyaların adlarını Azərbaycan dilində deyin.**









♦ **Bu sözlərdə [j] səsinin sayını və yerini müəyyənləşdirin.**

**3. Əvvəlcə müəllimlə birgə tələffüz edin, sonra hecaları oxuyun.**

[ja], [je], [ji], [jar], [müj], [ju], [jan], [jur], [raj], [əj], [jı], **[janr]**

**4. Şəkil üzrə kiçik mətn tərtib edib yazın. İçərisində [j] səsi olan adlardan istifadə edin.**



**5. Oxuyun və lüğətin köməyi ilə tərcümə edin.**

Jalə ikinci sinifdə oxuyur. O, dərslərini yaxşı oxuyur. Həmişə "5" alır. Jalə nağılı çox sevir. Nənəsi Müjgan hər gün ona təzə nağıl danışır.

Bu gün Jalə Azərbaycan dili dərsində "J j" hərfini də öyrəndi. İndi o, bütün hərfləri bilir. Jalə çox sevinirdi. Axşam Jalənin atası Əjdər əmi işdən gəldi. Jalə atasının yanına qaçdı. Dəftərini atasına göstərdi və dedi:

– Ata, bax, biz bu gün "j" hərfini də öyrəndik. İndi mən bütün hərfləri bilirəm.

Əjdər əmi çox sevindi. O, Jalənin üzündən öpdü və onu təbrik etdi.

Jalə dedi:

– Ata, mənə çoxlu kitab, jurnal al. Mən çoxlu kitab oxumaq istəyirəm. Axı mən bütün hərfləri bilirəm.

Səhər Əjdər əmi kitab mağazasına getdi. Orada kitab çox idi. Əjdər əmi "Azərbaycan nağılları" kitabını aldı. Əjdər əmi kitabı vərəqlədi. Kitab onun xoşuna gəldi. Sonra o, bir jurnal da aldı. Axşam Əjdər əmi kitabı və jurnalı Jaləyə verdi. Jalə kitaba baxdı. Tez oxudu: "Azərbaycan nağılları". Jalə çox sevindi. Atasının üzündən öpdü.

O, kitabı götürdü, otağına qaçdı. Tez kitabı açdı. Tez-tez vərəqlədi. Kitabda çoxlu şəkillər var idi. Jalə şəkillərə baxdı, baxdı... Necə də gözəl şəkillərdir!.. Məlikməmməd, div, əjdaha, Simurq quşu, Göyçək Fatma, ovçu Pirim...

Kitabda üç nağıl vardı. Birinci nağıl "Məlikməmməd" nağılı idi. İkinci "Göyçək Fatma", üçüncü isə "Ovçu Pirim" nağılı idi.

Jalə birinci nağılı açdı. Oxumağa başladı: Biri varmış, biri yoxmuş... Bir padşah varmış... Bu padşahın üç oğlu varmış. Padşahın balaca oğlunun adı Məlikməmməd imiş. Bu padşahın bağında bir alma ağacı varmış. Bu ağac birinci gün çiçək açarmış. İkinci gün çiçəyini tökərmiş. Üçüncü gün isə bar verərmiş. Padşah hər gün bağa gələrmiş ki, alma yesin. Amma görərmiş ki, alma yoxdur. Padşah kor-peşman evə qayıdarmış. Bir gün belə, beş gün belə...

**Söz ehtiyatı:**

| | |
|---|---|
| həmişə | oxumaq istəyirəm |
| bütün | təbrik etdi |
| işdən | göstərdi |
| vərəqlədi | əjdaha |
| üzündən öpdü | xoşuna gəldi |
| oğul | oxumağa başladı |

**6. Suallara cavab verin.**

1. Jalə neçənci sinifdə oxuyur?
2. Jalə dərslərini necə oxuyur?
3. O, dərslərindən neçə alır?
4. Jalə bu gün hansı hərfi öyrəndi?
5. Jalə niyə sevinirdi?
6. Jalə axşam atasına nə dedi?
7. Əjdər əmi nə etdi?
8. Səhər Əjdər əmi hara getdi?
9. Əjdər əmi mağazadan hansı kitabları aldı?
10. Jalə kitabı aldı və nə etdi?
11. Bu kitabda neçə nağıl var idi?
12. Jalə hansı nağılı oxumağa başladı?

**Atalar sözü:**

*Ağıl yaşda deyil, başdadır.*

**7. Yeni öyrəndiyiniz sözləri işlətməklə cümlələr qurun.**

**Yadda saxlayın:**
Qapını aç.
Qapını ört.

**8*. Şeiri əzbər öyrənin.**

## AÇIL, BƏNÖVŞƏ!

Döşəyin torpaq,
Yorğanın xəzəl,
Oyan, ay gözəl!

Otlar cücərdi,
Bağlar göyərdi.
Hamıdan əzəl
Oyan, ay gözəl!

Açıl, bənövşə,
Yarpağın üstə
Şeh düşə-düşə.

**Mirvarid Dilbazi**



**Söz ehtiyatı:**

| | |
|---|---|
| döşək | torpaq |
| göyərdi | bənövşə |
| xəzəl | şeh |

**9. Rollar üzrə oxuyun.**

– Salam, qızlar.
– Salam, Əzəmət, necəsən?
– Sağ olun, yaxşıyam. Siz necəsiniz?
– Biz də yaxşıyıq, sağ ol.
– Qızlar, hara gedirsiniz, bilmək olar?
– Əlbəttə, olar. Kitabxanaya gedirik. Nağıl, şeir kitabları almaq istəyirik.
– Nə yaxşı! Mən də kitabxanaya gedirəm. Siz hansı kitabxanaya gedirsiniz?

– Biz Firidun bəy adına kitabxanaya gedirik. Bəs sən?
– Elə mən də oraya gedirəm. Səməd Vurğunun, Mirzə Ələkbər Sabirin şeir kitablarını alacağam.
– Avtobusla, yoxsa piyada gedək?
– Avtobusla gedək. Avtobus tez gedir.
– Lap yaxşı. Avtobus düz kitabxananın yanında dayanır. Gedək.

**Atalar sözü:**

*Təmizlik sağlamlıqdır.*
*Dostun yoxsa, axtar, tapdın qoru.*

**10. Tərcümə edin.**

kitabxanaya hazırlaşırıq, bayrama hazırlaşırıq, Qız qalasına baxırıq, Azərbaycan dilini öyrənirik, rus dilini öyrənirik, avtobusla gedirsiniz, nağıl oxuyursunuz, şeir əzbərləyirsiniz, qərənfil alırsınız, kitabı götürürsünüz, həyətdə oynayırsınız, şəhərə gedirik

**11. Şəkillərə baxın və cümlələri tamamlayın.**


Nərgiz – – .


Nərgiz – – .


Günay – – .


Günay – – .


Şəfəq xala – – .


Şəfəq xala – – .

**12. Şeiri əzbər öyrənin.**



Qərənfiləm mən,
Gözəl güləm mən.
Yaşıl saplaqlı
Bir sünbüləm mən.

**Abdulla Şaiq**

**Söz ehtiyatı:**

saplaqlı sünbül

**13*. Oxuyun.**

Bir dəvə çöldə otlayırdı. O, yarpaqlanmış tikan koluna yaxınlaşdı. Onun yarpaqlarını yemək istədi. Ağzını kola tərəf uzatdı. Kolun içində bir ilan qıvrılıb yatmışdı. Dəvə ilanı gördü. O, geri qayıtdı. Kol düşündü:
– Aha, dəvə mənim tikanlarımdan qorxdu.
Dəvə onun fikrini duyub dedi:
– Mənim qorxum səndən deyil. Orada gizlənmiş qonaqdandır.

**Firidun bəy Köçərli**

**Söz ehtiyatı:**

| | |
|---|---|
| uzatdı | kolun içində |
| düşündü | gizlənmiş |

## § 33. Mənim Vətənim

**ölkə, paytaxt, geniş, qonaq, azad, şair, işləyir, xalq**

Azərbaycan qədim bir ölkədir. Onun qədim və gözəl şəhərləri, zəngin ədəbiyyatı var. Azərbaycanın paytaxtı Bakı şəhəridir. Bakı böyük və gözəl bir şəhərdir. Bakı həm də qədim şəhərdir. O, Xəzər dənizinin sahilində yerləşir.

Bakı şəhərində iki milyon yarıma yaxın əhali yaşayır.

Bakıda böyük zavodlar (zəngin kitabxanalar, muzeylər, qədim abidələr) var. Geniş küçələr, gözəl bağ və parklar (əzəmətli heykəllər, hündür binalar) Bakıya xüsusi gözəllik verir.

Qədim Qız qalası, Şirvanşahlar sarayı (İçərişəhər, Atəşgah) Bakıya gələn qonaqları heyran edir.

Dənizkənarı bulvar şəhəri daha da gözəlləşdirir. Burada qocalar dincəlir, uşaqlar oynayırlar. Bulvar yayda xüsusilə gözəl olur.

Azərbaycan həm də "qara qızıl" ölkəsidir. Neft Azərbaycanın ən qiymətli sərvətidir. Azərbaycan, Bakı həm də neftlə tanınır. Ölkəmizdə hər il milyonlarla ton neft çıxarılır.

1991-ci ildən Azərbaycan müstəqil bir ölkədir. İndi Azərbaycan dünyanın hər yerində tanınır.

Bu azad ölkə mənim Vətənimdir! Mən doğma Vətənimi sevir, onunla fəxr edirəm. Xoşbəxtəm ki, azad bir ölkənin vətəndaşıyam. Azərbaycan mənim doğma anam, mən isə onun kiçik bir övladıyam. Böyük şairimiz S.Vurğun "Azərbaycan" şeirində çox gözəl deyib:



El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!

Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana.
Hansı səmtə, hansı yana
Hey uçsam da, yuvam sənsən,
Elim, günüm, obam sənsən!

**Söz ehtiyatı:**

ölkə
qədim
zəngin
ədəbiyyat
paytaxt
qonaq
işləyir
abidə
xüsusilə
qara qızıl
çıxarılır
fəxr edirəm
vətəndaş
geniş
heykəl
əzəmətli
bina
yaraşıq verir
yerləşir
heyran edir
qocalar
şair
tanınır
qiymətli sərvət
doğma
xoşbəxt

**1. Suallara cavab verin.**

1. Azərbaycan necə ölkədir?
2. Azərbaycanın paytaxtı hansı şəhərdir?
3. Bakı şəhəri harada yerləşir?
4. Bakıya nə yaraşıq verir?
5. Bakıda hansı qədim abidələr var?
6. Azərbaycan daha çox nə ilə tanınır?
7. Azərbaycan nə vaxtdan müstəqildir?
8. Səməd Vurğunun "Azərbaycan" şeirini bilirsinizmi?

**Atalar sözü:**

*Hər kəsə öz Vətəni şirindir.*

**2. Oxuyun və tərcümə edin.**

mənim — ölkəm, vətənim, şəhərim, anam, xalqım

sənin — ölkən, vətənin, şəhərin, anan, xalqın

bizim — ölkəmiz, vətənimiz, şəhərimiz, anamız, xalqımız

sizin — ölkəniz, vətəniniz, şəhəriniz, ananız, xalqınız

**3. Cümlələri oxuyun, tərcümə edin və yadda saxlayın.**

1) Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir.
2) Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhəridir.
3) Rusiya Federasiyasının paytaxtı Moskva şəhəridir.
4) Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhəridir.
5) Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhəridir.
6) Fransa Respublikasının paytaxtı Paris şəhəridir.

**4. Oxuyun və tərcümə edin. Sonra cümlələrdə işlədin.**

Azərbaycan, fransız, rus, türk — xalqı

Azərbaycanın, Rusiyanın, Türkiyənin, Türkmənistanın — prezidenti

Azərbaycan
Qazaxıstan
Rusiya
Ərəbistan
→ nefti

Azərbaycan
Gürcüstan
Hindistan
Çin
→ çayı

Azərbaycan
ingilis
rus
türk
→ şairi

Qarabağ
Qazax
türkmən
ingilis
→ atı

**5. Şəkillərə baxıb cümlələr qurun.**






**6*. Şeiri əzbər öyrənin.**

## VƏTƏNİN KEŞİYİNDƏ

Laylasında anam mənə
Belə demiş dönə-dönə:
“Bir anan mən, biri Vətən,
Yadda saxla bunları sən.
Canın kimi sev Vətəni,
O bəsləmiş, oğul, səni!”.

**Mirvarid Dilbazi**

**Söz ehtiyatı:**
dönə-dönə
canın kimi
yadda saxla
bəsləmiş

**7. Cümlələri oxuyun, tərcümə edin və yadda saxlayın.**

1) Nizami böyük Azərbaycan şairidir.
2) Füzuli böyük Azərbaycan şairidir.
3) Mirzə Ələkbər Sabir böyük Azərbaycan şairidir.
4) Səməd Vurğun böyük Azərbaycan şairidir.
5) Puşkin böyük rus şairidir.
6) Rustaveli böyük gürcü şairidir.
7) Lermontov böyük rus şairidir.
8) Bayron böyük ingilis şairidir.

**8. Buraxılmış sözləri yerinə qoyun və oxuyun.**

1) Mənim anam – işləyir. 2) Səməd Vurğun – anadan olub. 3) Nizami Gəncəvi – yaşayıb. 4) Mənim xalam – işləyir. 5) Azərbaycanda çoxlu – çıxarılır. 6) Uşaqlar şəhidlərin məzarına – qoydular. 7) Novruz bayramında hamı –, şəkərbura, qoğal bişirir.

**Sözlər:** ***paxlava, Qazaxda, Gəncədə, qərənfil, neft, kitabxanada, məktəbdə***

**9*. Mətni oxuyun, sonra məzmununu danışın.**

## ƏN VACİB SƏNƏT

Bir gün əkinçi, dəyirmançı və çörəkçi arasında bərk mübahisə düşdü. Çörəkçi dedi:

– Mən bu dadlı və gözəl çörəkləri bişirməsəm, siz nə yeyərsiniz?

Dəyirmançı dedi:

– Mən taxılı öz dəyirmanımda üyüdüb un etməsəm, sən bu dadlı çörəyi nədən bişirərsən?

Əkinçi dedi:

– Əgər mən taxılı əkib-becərməsəm, sən dəyirmanda nəyi üyüdərsən?

Onlar mübahisə edə-edə Dədə Qorqudun yanına gəldilər. Dədə Qorqud bircə kəlmə ilə onların mübahisəsini kəsdi:

– Sizin üçünüzün də sənəti gözəldir. Əkinçi sənəti də, dəyirmançı və çörəkçi də.

**Əli Səmədov**

**Söz ehtiyatı:**

| | |
|---|---|
| vacib sənət | əkinçi |
| dəyirmançı | çörəkçi |
| dəyirman | mübahisə |

**10. Oxuyun və tərcümə edin.**

– Salam.
– Salam.
– Tanış olaq, mənim adım İlahədir. Bəs sənin adın nədir?
– Mənim adım Tanyadır. İlahə, sən harada yaşayırsan?
– Mən Gəncədə yaşayıram.
– Gəncə böyük şəhərdir?
– Bəli, Gəncə böyük və qədim şəhərdir. Gəncədə böyük və gözəl bağlar, parklar, hündür evlər, geniş küçələr var. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi də Gəncədədir. Tanya, Gəncəyə qonaq gəl. Mən sənə şəhəri göstərərəm.
– Sağ ol, İlahə. Mütləq gələrəm.

**Söz ehtiyatı:**

məqbərə
göstərərəm
mütləq

**Yadda saxlayın:**
Tərcümə et.
Tərcümə edin.

## § 34. TƏKRAR

**1. Sağ sütundakı sözlərdən mənaca sol sütundakılara uyğun olanları tapıb birlikdə oxuyun.**

| | |
|---|---|
| bayraq | üçrəngli |
| aşıq | məşhur |
| vətən | böyük |
| şair | qırmızı |
| otaq | geniş |
| papaq | qədim |
| paltar | gözəl |
| bayram | sevimli |
| xalq | azad |
| müəllim | təmiz |

**Nümunə:** ***məşhur xalq, böyük xalq, azad xalq***

**2. Sual işarələrinin yerinə mənaca uyğun sözlər artırın və oxuyun.**

gördü (nəyi?) — dovşanı, ?, ?

götürdü (nəyi?) — kitabı, ?, ?

apardı (nəyi?) — atı, ?, ?

öyrəndi (nəyi?) — dərsi, ?, ?

qaçdı (haraya?) (hara?) — həyətə, ?, ?

hazırlaşırıq (haraya?) — Şəhidlər xiyabanına, ?, ?

**3. Rollar üzrə oxuyun. *Arif* və *Nazim* sözlərində [a] səsinin tələffüzünə diqqət yetirin.**

Nazim: – Salam, Arif, necəsən?
Arif: – Sağ ol, Nazim, yaxşıyam!
Nazim: – Arif, Nizamini tanıyırsan?
Arif: – Hansı Nizamini?
Nazim: – Bizim qonşumuz Nizamini deyirəm. Bacısı da bizimlə bir sinifdə oxuyur. Ülkərin qardaşını deyirəm də!
Arif: – Yox, Nazim, tanımıram. Nə üçün soruşursan ki?
Nazim: – Bilirsən, atası Nizamiyə gözəl bir at alıb. Elə gözəl atdır ki!
Arif: – Nə yaxşı! Nizami at sürə bilir?
Nazim: – Əlbəttə, sürə bilir. O, atı çox sevir. Atdan ayrılmaq istəmir. Məktəbdən qayıdan kimi atın yanına gedir. Ona qulluq edir.

**Söz ehtiyatı:**

| | |
|---|---|
| soruşursan | nə üçün |
| sürə bilir | ayrılmaq |

**4*. Mətni oxuyun və məzmununu danışın.**

## TÜLKÜ VƏ KƏKLİK

Bir kəklik dağ başında oxuyurdu. Tülkü onun səsini eşitdi və yanına gəldi. Dedi:

– Ay kəklik, sən çox gözəl quşsan. Gözəl də səsin var. Sən elə həmişə oxuyursan? Bəs sən heç yatmırsan?

Kəklik dedi:
– Niyə yatmıram, əlbəttə, yatıram.
Tülkü dedi:
– İndi ki, yatırsan, bir göstər görüm, sən necə yatırsan?
Kəklik yatmağını göstərmək üçün gözlərini yumdu. Tülkü cəld sıçrayıb onu tutdu.
Kəklik gördü ki, tülkü onu aldadırmış. O isə tülküyə inanıb. Deməli, tülkü indi onu yeyəcək. Kəklik başını tülkünün ağzından çıxarıb dedi:
– Ay tülkü baba, sən çox zirək heyvansan. Çox cəld şikar tutursan. Sən heç şikarı yeyəndə Allaha şükür edirsən?
Tülkü cavab verdi:
– Necə eləmirəm, əlbəttə ki, eləyirəm.
Kəklik dedi:
– İndi, tutaq ki, sən məni yeyibsən. Bir Allaha şükür elə görüm, nə təhər edirsən?
Tülkü ağzını açdı ki, şükür eləsin. Kəklik uçub qondu bir qayanın üstünə.
Tülkü vəziyyəti belə görüb dedi:
– Kəklik qardaş, sən mənim ağzımdan qurtardın, get! Amma lənət gəlsin o adama ki, şikarını yeməmişdən Allaha şükür edə!
Kəklik cavabında dedi:
– Yaxşı deyirsən, tülkü baba! O adama da lənət gəlsin ki, yuxusu gəlməmiş gözlərini yumub yatmaq istəyə!

**Firidun bəy Köçərli**

**Söz ehtiyatı:**

| | |
|---|---|
| kəklik | şikar |
| sıçrayıb | qondu |
| aldadırmış | zirək |

**5*. Yanıltmacı oxuyun və yadda saxlayın.**

**Bazarda nə ucuz? Mis ucuz, küncüt ucuz, duz ucuz.**

**6. Oxuyun və tərcümə edin. Ev heyvanlarının və quşlarının adlarını sadalayın.**

Canavar / Tülkü / Dovşan → heyvandır.

Bülbül / Toyuq / Ördək → quşdur.

İnək
At → heyvandır.
Quzu

Qaranquş
Qaz → quşdur.
Sərçə

**7.** **Verilmiş cümlələrin içərisindən şəkillərə uyğun olanları oxuyun və tərcümə edin.**



Stolun üstündə kitab və dəftər var.
Stolun üstündə albomlar var.
Stolun üstündə dəftərlər var.



Burada çoxlu dovşan var.
Burada çoxlu quş var.
Burada iki dovşan var.



Arzu yazır.
Arzu danışır.
Arzu şəkil çəkir.

**Yadda saxlayın:**
Sabahınız xeyir.
Axşamınız xeyir.

**8.** **Şəkillərə diqqətlə baxın. Yaz və yay haqqında mətnlər tərtib edin.**





**9. Sualların yerinə uyğun sözlər artırıb oxuyun.**

1) Azər küçədə (kimə?) rast gəldi. 2) Bizim otağımız həmişə (necə?) olur. 3) Siz (haradan?) kitab alırsınız. 4) Uşaqlar bağdan (nə?) yığdılar. 5) Güldanda (neçə?) qərənfil var. 6) Hər il 20 Yanvarda biz (hara?) gedirik.

**10. Tərcümə edin.**

1) Azərbaycanda hər il çoxlu neft çıxarılır. 2) Atam bizi şəhərə apardı. 3) Gəncə çox qədim və gözəl şəhərdir. 4) Tülkü iki toyuq, bir xoruz yedi. 5) Eldar əmi kənddən bir quzu gətirdi. 6) Uşaqlar Səməd Vurğunun heykəlinin önünə qırmızı qərənfillər qoydular. 7) Mart ayında xalqımız Novruz bayramına hazırlaşır.

**11. *Dərs*, *at*, *xalq*, *bayraq*, *dayı* sözlərini şəxslər üzrə dəyişib yazın.**

mənim bayrağ.., xalq..
sənin bayrağ.., xalq..
onun bayrağ.., xalq..
bizim bayrağ.., xalq..
sizin bayrağ.., xalq..
onların bayrağ.., xalq..

**12*. Şəkil üzrə "Neft Azərbaycanın sərvətidir" mövzusunda mətn tərtib edin. Mətndə *buruq*, *fəhlə*, *boru*, *zavod*, *Xəzər dənizi*, *neft kəməri*, *benzin* sözlərindən istifadə edin.**



1. Şəkildə nə görürsünüz?
2. Neft harada çıxarılır?
3. Nefti kim çıxarır?
4. Neft borularla hara axıdılır?
5. Neftdən nə alınır?
6. Neftdən harada istifadə edilir?
7. Azərbaycan nefti neft kəmərləri ilə hansı ölkələrə göndərilir?

**13. Şeiri oxuyun və "Böyüklərə hörmət etmək lazımdır!" mövzusunda mətn tərtib edin.**

Qoca gördünsə, yol ver
Sən küçədə, dalanda.
Sənə də yol verərlər
Sabah sən qocalanda.

**Fikrət Sadıq**

**Söz ehtiyatı:**
dalan

**14. Suallara cavab verin.**

1) Azərbaycan əlifbasında neçə hərf var?
2) Azərbaycan və təhsil aldığınız dilin əlifbasında hərflərin sayı bərabərdirmi?
3) Azərbaycan dilindəki hansı səslər təhsil aldığınız dildə yoxdur?
4) Təhsil aldığınız dildəki hansı səslər Azərbaycan dilində yoxdur?

**15. Suallara cavab verin.**

1) Azərbaycan bayrağında hansı rənglər var?
2) Hansı Azərbaycan şair və yazıçılarını tanıyırsınız?
3) Azərbaycan Respublikasının Dövlət Himninin musiqisini kim yazıb?
4) Azərbaycan Respublikasının Dövlət Himninin sözlərinin müəllifi kimdir?
5) Azərbaycanda hansı bayramlar qeyd olunur?



**Yadda saxlayın:**

Yaxşı yol!
Uğur olsun!



**Buraxılış məlumatı**

# AZƏRBAYCAN DİLİ 2

Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün
Azərbaycan dili (dövlət dili)
fənni üzrə dərslik

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Həvva Abdullayeva,** |
| Rəyçilər: | **Kifayət Qurbanova**<br>*Bakı şəhəri 7 nömrəli tam orta məktəbin müəllimi*<br>**Təranə Mikayılova**<br>*Bakı şəhəri 23 nömrəli tam orta məktəbin müəllimi* |
| Naşir | **Xəlil Həsənoğlu** |
| Redaktor | **Hafiz Rüstəm** |
| Texniki redaktor | **Turqay Cəlallı** |
| Rəssam | **Ülviyyə Həyatova** |
| Korrektor | **Billurə Ələkbərova** |
| Dizayner | **Tural Səfiyev** |

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2018-005.**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018.**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Fiziki çap vərəqi 11,0. Formatı 57x82 1/8.
Səhifə sayı 88. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tirajı 17301. Pulsuz. Bakı-2018.

**“KÖVSƏR” NƏŞRİYYATI**
**Bakı, AZ 1010, Dilarə Əliyeva küç., 251A/8A**

PULSUZ

**Əziz məktəbli!**

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!

